Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

İkinci sessiya
Yaz

25-ci cild

18 mart 2025-ci il

Milli Məclisin nəşri
Bakı – 2025

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# II SESSİYASI İCLASININ

# PROTOKOLU № 26

*Milli Məclisin iclas salonu.*
*18 mart 2025-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 112 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 107 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. “Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq Sazişi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

2. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. “Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası qanununun layihəsi.

4. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

5. “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

6. “Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

7. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Dərman vasitələri haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. “Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. “Nəqliyyat haqqında” Azərbaycan Respublikasının

Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. "Təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**1. "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında Azərbaycan**

**Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zaur Şükürov, Səməd Seyidov, Aydın Mirzəzadə, Hikmət Məmmədov, Bəxtiyar Əliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**2. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Razi Nurullayev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.26 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**3. “Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan**

**Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Bayramov, Tahir Rzayev, Əli Hüseynli, Nurlan Həsənov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.31 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**4. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.32 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**5. "Çernobıl qəzasının ləğvində iştirak etmiş və hə-**

**min qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Bayramov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.35 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

**6. "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Sadiq Qurbanov, Əli Hüseynli, Zahid Oruc

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

**7. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Dərman vasitələri haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Tahir Rzayev, Əhliman Əmiraslanov, Elçin Mirzəbəyli, Razi Nurullayev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

**8. “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Hicran Hüseynova, Nigar Məmmədova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.12 dəq.)

| | |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**9. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Vüqar Bayramov, Fazil Mustafa, Hicran Hüseynova, Gülşən Paşayeva, Hikmət Məmmədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**10. "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**11. "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**12. "Təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar İsgəndərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**13. "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elşən Musayev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**14. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Qüdrət Həsənquliyev, Erkin Qədirli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 103 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*18 mart 2025-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli həmkarlar, hörmətli media nümayəndələri!

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 107 |
| Yetərsay | 83 |

Yetərsay var və iclasa başlaya bilərik.

Xahiş edirəm, gündəliyə də münasibət bildirin. Gündəlik hamıya paylanıb.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 105 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin məsələlərinə keçirik. Qeyd edim ki, bu gün bizim gündəliyimizdə 14 məsələ var.

Gündəliyin 1-ci məsələsi "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında qanun layihəsidir. Bildiyiniz kimi, beynəlxalq sənədlə bağlı olduğuna görə layihə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul edilməlidir.

Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Zaur Şükürova söz verirəm. Zaur müəllim, buyurun.

**Zaur Şükürov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Fürsətdən istifadə edərək torpaq çərşənbəsi, qarşıdan gələn Novruz və Ramazan bayramları münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev başda olmaqla xalqımızı təbrik edirəm. Eyni zamanda, hörmətli xanım sədr, şəxsən Sizə, deputat həmkarlarıma təbriklərimi çatdırıram, möhkəm can sağlığı, davamlı uğurlar, dövlətimizin daha qüdrətli və xalqımızın daim firavan olmasını arzulayıram.

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, dəyərli media nümayəndələri, layihəsini hazırda müzakirə etdiyimiz qanunla təsdiq edilməsi nəzərdə tutulan "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq Sazişi" Təşkilatın 2024-cü il noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən 11-ci Zirvə görüşü çərçivəsində imzalanmışdır. Üzv ölkələr arasında rəqəmsal iqtisadiyyat və elektron ticarət sahəsində əməkdaşlığı gücləndirmək məqsədi ilə imzalanmış saziş çərçivəsində tərəflər elektron ticarətin inkişafı, gömrük və logistika, maliyyə texnologiyaları və rəqəmsal ödənişlər, kiçik və orta biznesin dəstəklənməsi, istehlakçı hüquqlarının qorunması, kibertəhlükəsizlik və məlumat mübadiləsi, elektron imzalar və hüquqi uyğunlaşma istiqamətləri üzrə əməkdaşlıq öhdəliyi götürürlər. Bu isə tərəflər arasında rəqəmsal ticarətin genişləndirilməsinə, elektron bazarların yaradılmasına, sərhədlərarası ticarət proseslərinin sürətləndirilməsinə, ekspress yükdaşımaların asanlaşdırılmasına və rəqəmsal ticarət üçün gömrük prosedurlarının optimallaşdırılmasına, elektron ödəniş sistemlərinin inteqrasiyası və yeni rəqəmsal maliyyə xidmətlərinin inkişaf etdirilməsinə, kiçik və orta biznesin rəqəmsal bazara çıxışının asanlaşdırılmasına və bizneslərin rəqəmsallaşdırılmasının sürətləndirilməsinə, elektron ticarət sahəsində istehlakçıların hüquqlarının müdafiə edilməsinə, rəqəmsal infrastrukturun təhlükəsizliyinin artırılmasına və kibertəhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsinə, rəqəmsal sənədlərin və elektron imzaların üzv dövlətlər arasında qarşılıqlı tanınmasının təmin edilməsinə və hüquqi bazanın uyğun-

laşdırılmasına imkan verəcək.

Sazişin müddəalarının yerinə yetirilməsinin izlənilməsi və tərəflər arasında əlaqələndirilmənin təmin edilməsi məqsədi ilə birgə komitənin təsis edilməsi nəzərdə tutulur.

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, bu saziş 2009-cu ildə Naxçıvan Sazişi ilə əsası qoyulan və 2024-cü ildə Qarabağ Bəyannaməsi ilə yeni strateji hədəfləri bəyan edən, Türk Dövlətləri Təşkilatı çərçivəsində rəqəmsal inteqrasiyanı və texnoloji əməkdaşlığı genişləndirmək məqsədi daşıyan əhəmiyyətli bir sənəddir. Sazişin təsdiq edilməsi haqqında qanun layihəsi komitəmizin üzvləri tərəfindən yekdilliklə dəstəklənmişdir. Layihənin səsə qoyulmasını xahiş edirik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Zaur müəllim, sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən komitənin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, mən də bütün təbriklərə qoşuluram. Allah hamımızı qorusun, hamımıza xoş günlər bəxş etsin!

Əziz həmkarlar, Zaur müəllim eyni zamanda, bizim komitənin də üzvüdür və çox yüksək səviyyəli bir təqdimat etdi. Həm iqtisadi, həm də beynəlxalq münasibətlər nöqteyi-nəzərindən bu qanun layihəsi xüsusi əhəmiyyət kəsb edir. Biz əyani şəkildə türk dünyasına məhz rəqəmsal imkanlardan istifadə edilməklə hücumları

da görürük və Sahibə xanım, Sizin birbaşa rəhbərliyiniz altında parlamentdə bir neçə dəfə bu məsələ qaldırılmışdır ki, türk dövlətləri arasında bu istiqamətdə işlər də yüksək səviyyədə təşkil olunmalıdır. Ona görə, bax, bu istiqamətdə bizə təqdim olunan qanun layihəsi həm türk dövlətlərini birləşdirəcək, həm xalqlarımıza, həm də türk dünyasına qarşı olan hücumlara və təhdidlərə qarşı bir hərəkət planıdır. Bu nöqteyi-nəzərdən bunun beynəlxalq səviyyədə əhəmiyyətini, təbii, biz çox yüksək səviyyədə qiymətləndiririk və komitəmizdə yekdilliklə müsbət rəy verilmişdir. Bu gün bu qanun layihəsini təsdiq etməyinizi sizdən xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Onu deyim, Səməd müəllim, mən düşünürəm ki, Sizin təmsil olunduğunuz o ikitərəfli, üçtərəfli qurumların, həmin o komitələrin iclaslarında, bax, bu mövzu mütləq şəkildə öz əksini tapmalıdır. Səməd müəllim, bununla bağlı sonra biz Sizinlə danışarıq. Düşünürəm ki, bəlkə biz Bakıda bir tədbir də keçirə bilərik.

Çox sağ olun.

Hörmətli həmkarlar, indi müzakirəyə keçirik. Aydın Mirzəzadə. Aydın müəllim, buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. İlk növbədə hər kəsi qarşıdan gələn Novruz bayramı və bugünkü ilaxır çərşənbə günü münasibəti ilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, qoy hər Novruz bayramı bizim əvvəlki uğurlu ilimizə yekun vuraraq bundan sonrakı uğurlu ilimizin əsasını qoysun. Qoy sülh əbədi olsun, qoy Azərbaycan daha da qüdrətli olsun və Azərbaycanın qarşısında duran problemlər, məsələlər cənab Prezidentimizin rəhbərliyi ilə uğurla həll edilsin! Edilir və edilməkdədir.

Hörmətli xanım sədr, mən sazişi dəstəkləyirəm. Bu saziş, sadəcə olaraq, bir qrup dövlət arasında müəyyən bir beynəlxalq sənəd deyil, bu, dil faktoru üzrə birləşən dövlətlərin münasibətlərində yeni bir mərhələdir. Bu, sadəcə, iqtisadiyyat üzrə əməkdaşlıq deyil, bu, dünyada artıq genişlənən və əsas yer tutan rəqəmsal iqtisadiyyat üzrə sazişdir. Dünyada dil faktoru üzrə mövcud olan bir sıra təşkilatlar var. Bu, ingilisdilli ölkələrin millətlər birliyidir. Bu, ispandilli, fransızdilli, ərəbdilli ölkələrdir. Son dövrlərdə türkdilli dövlətlərin təşkilatı günü-gündən beynəlxalq aləmdə yüksək nüfuz qazanmaqdadır. Bu təşkilatlar təkcə siyasi əməkdaşlıq etmir, onlar, demək olar ki, dövlətlər, yaxud bir təşkilat, üzv ölkələr arasında əməkdaşlığın bütün formalarını həyata keçirirlər.

Cənab Prezidentimiz ötən il inaqurasiya mərasimində "Bizim ailəmiz türk dünyasıdır" kimi bir bəyanat verdi. Bu reallıq da öz təsdiqini tapır. Bizim türkdilli dövlətlərlə əməkdaşlığımız günü-gündən artır və həmin ölkələrdə Azərbaycana maraq, Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirmə əhval-ruhiyyəsi var. Eyni zamanda, Azərbaycan da həmin ölkələrlə ikitərəfli, çoxtərəfli əməkdaşlığa böyük bir diqqət edir. Həm birlikdə, həm də ayrı-ayrı ölkələr üzrə investisiya fondları yaradılır, birgə investisiya yatırımı həyata keçirilir. Bunların hamısı sevindiricidir. Bu o deməkdir ki, türk dünyasının böyük perspektivi var, türk dünyası dünya siyasətində böyük bir faktora çevrilir. Bu dünyanın, bu təşkilatın möhkəmlənməsində Azərbaycanın xüsusi yeri var, cənab Prezidentimizin xüsusi əməyi var. Bu sazişin bundan sonra da türk dövlətlərinin inteqrasiyasına, onlar arasında əməkdaşlığın, həmrəyliyin olmasına, hansı isə bir problemin mövcudlu-

ğunda hamısının yumruq kimi bir yerdə olmasına böyük dəstək verəcəyini hesab edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov**. Hörmətli xanım sədr, hörmətli millət vəkili həmkarlarım, hörmətli jurnalist həmkarlarım. Hamınızı ilaxır çərşənbəsi münasibəti ilə təbrik edirəm. Novruzun bərəkəti, rəhməti xalqımızın, hər bir ailənin üzərindən əskik olmasın.

Bugünkü təqdim olunan qanun layihəsi çox vacib bir qanun layihəsidir. Amma mən bu barədə danışmazdan əvvəl, düşünürəm ki, qısaca bir sosial arxeologiya edib yaddaşımızın 30 il bundan əvvəlinə qayıtsaq, yaxşı olar. Çünki 30 il bundan əvvəl, 1995-ci ildə Azərbaycan dövlətçiliyi tarixində mühüm, kritik bir mərhələ yaşadıq. 15-17 mart hadisələri adlandırılan sonuncu qiyam hadisəsini yaşadıq. Azərbaycanda dövlət çevrilişinə cəhd edildiyi bir tarixi yaşadıq. Əgər həmin dövrdə böyük dövlət xadimi, Ulu Öndərin müdrik qərarları olmasa idi, yəqin ki, biz nə tarixi Zəfərimizə, nə bu günlərə gəlib çıxa, nə də ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa edə bilərdik.

15-17 mart hadisələrindən sonra aprel ayının 4-də və 5-də o vaxtkı Respublika Sarayında, indiki Heydər Əliyev Sarayında ümumxalq toplantısı keçirildi və bu toplantı iki gün davam etdi. Azərbaycan dövləti qarşısında əngəllərdən, bəlalardan, dövlət çevrilişlərindən xilas olmağa nail olan Ulu Öndər Heydər Əliyev həmin vaxt Respublika Sarayındakı çıxışında dedi: “Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir!”. Yəni bununla da müstəqil dövlətçilik tariximizdə dövlət çevrilişi cəhdlərinə son qoyuldu, məhz ondan sonra həmin il, yəni 1995-ci il

noyabr ayının 12-də Azərbaycanın ilk milli Konstitusiyası qəbul edildi və 30 ildən sonra bu gün Azərbaycanın Prezidenti 2025-ci ili "Konstitusiya və Suverenlik İli" kimi elan etdi.

Çox mühüm bir tarixdir və mən yenə qanun layihəsi ilə əlaqədar olan başqa bir məsələyə toxunuram. Həmin dövrdə bu qiyamların qarşısı alınmasa idi, yəqin ki, 2009-cu ildə Naxçıvanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası da yaradılmazdı. 2021-ci ildə tarixi Zəfərimizdən sonra İstanbul Konfransında bu təşkilatın adı dəyişdirilib Türk Dövlətləri Təşkilatı da adlandırılmazdı. Nəhayət, biz bu gün bu iqtisadi inteqrasiyadan, rəqəmsal iqtisadiyyatdan danışa bilməzdik. Ona görə də mən düşünürəm ki, tarix öz-özlüyündə həm hesabatdır, həm də milli yaddaşdır. Bu günləri xatırladıqca, haradan bu günlərə gəldiyimizi yada saldıqca nə qədər böyük, nə qədər uğurlu bir yol keçdiyimiz bir daha aydın olar.

Qəbul edəcəyimiz qanun layihəsinin bir mühüm cəhəti də ondan ibarətdir ki, bu qanun layihəsi hazırkı tarixi mərhələdə yeni milli vəzifələrimiz və çağırışlarımızla uzlaşır, üst-üstə düşür. Nəticə etibarı ilə Türk Dövlətləri Təşkilatının iqtisadi bütövlüyü, coğrafi bütövlüyü Zəngəzur dəhlizindən keçəcəkdir və Zəngəzur dəhlizi coğrafi birlik rolunu oynamaqla bərabər, həm də regiona rifah, sülh, iqtisadi inteqrasiya və inkişaf gətirəcəkdir. Ona görə mən düşünürəm ki, bu layihə və burada qeyd olunan məsələlər, sadəcə, Türk Dövlətləri Təşkilatının üzvü olan ölkələrin maraqları kontekstində deyil, həm də böyük tarixi coğrafiya olan Orta Asiya, Ön Asiya və bu coğrafiyada yerləşən Türk Dövlətləri Təşkilatına üzv olmayan dövlətlər üçün də çox əhəmiyyətlidir. Yəni bu regional

iqtisadiyyat, şübhəsiz ki, Gürcüstana da, Qara dəniz ətrafı ölkələrə də rifah gətirəcəkdir. Əgər sözdə, bəyanatlarda sülhdən danışıb, şərti sərhəddə bizim mövqelərimizi atəşə tutan, beləliklə də, sülh niyyətindən çox uzaq olduğunu göstərən Ermənistan da, nəhayət, real şərtlərdə sülhlə bağlı konkret addımlar atarsa, düşünürəm ki, yəqin elə Ermənistanın da bu iqtisadi inteqrasiyanın bir parçasına çevrilməsinə şansı olacaqdır. Ona görə də mən bu qanun layihəsinə səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev**. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən də deputat həmkarlarımın təbriklərinə qoşuluram. Hörmətli xanım sədr, Sizi, deputat həmkarlarımı, Milli Məclis Aparatının və İşlər İdarəsinin bütün əməkdaşlarını ilaxır çərşənbə münasibəti ilə təbrik edirəm. Hər kəsə möhkəm can sağlığı, xoşbəxtlik və işlərində uğurlar arzulayıram.

Şübhəsiz ki, Türk Dövlətləri Təşkilatının daha da möhkəmlənməsində, Türk Dövlətləri Təşkilatının üzv dövlətləri arasında münasibətlərin dərinləşməsində Azərbaycan Respublikasının töhfəsi böyükdür və bu, danılmaz bir faktdır. Qeyd etmək istərdim ki, hələ ötən ilin yayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Şuşa şəhərində Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin qeyri-rəsmi Zirvə toplantısı keçirilmişdir və həmin toplantıda bu gün müzakirə etdiyimiz sazişlə bağlı da fikirlər səsləndirilmişdir.

Azərbaycan bu gün Şərq–Qərb nəqliyyat dəhlizinin genişləndirilməsində çox böyük rol oynayır və aparıcı bir yer tutur. Eyni zamanda, Orta Dəhlizin ayrılmaz bir his-

səsi olan Bakı–Tbilisi–Qars dəmir yolu vasitəsi ilə yükdaşımalar daha da genişlənir. Həmin zirvə toplantısında vurğulandığı kimi, ildə 1 milyon ton yükdaşıması nəzərdə tutulurdusa, bu, artıq 5 milyon tonu keçibdir. Eyni zamanda da, Xəzər dənizi üzərindən Ələt Beynəlxalq Dəniz Ticarət Limanında yükgötürmə qabiliyyəti 15 milyon tondan, cənab Prezidentin qeyd etdiyi kimi, 25 milyon tona qədər və bəlkə də ondan daha çox olacaqdır. Bunların daha sürətli keçirilməsi və çatdırılması üçün, əlbəttə ki, elektron ticarətin də həyata keçirilməsi əhəmiyyətli yer tutur. Bugünkü sazişi biz, eyni zamanda, həmin zirvə toplantısında da xüsusi ilə qeyd olunmuş "Rəqəmsal İpək Yolu" layihəsinin tərkib hissəsi kimi də qiymətləndirə bilərik. Ona görə də bu sazişin qəbul edilməsi, əlbəttə ki, təkcə Türk Dövlətləri Təşkilatında deyil, eyni zamanda, Şərq–Qərb, Orta Dəhliz vasitəsi ilə ticarət dövriyyəsinin daha da intensivləşdirilməsi və dərinləşdirilməsinə xidmət edəcəkdir. Ona görə də bu sazişin böyük əhəmiyyəti var və deputat həmkarlarımı da bu sazişi dəstəkləməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, çıxışlar bitdi. Mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti beş məsələsi uyğunlaşdırma və ya dəqiqləşdirmə xarakteri daşıyır. Odur ki, bu qanun layihələri də adıçəkilən Konstitusiya Qanununa uyğun olaraq, bir oxunuşda qəbul ediləcək.

Hörmətli həmkarlar, biz indi gündəliyin 2-ci məsələsinə keçirik və bu məsələ "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıbdır və ona görə də mən komitənin sədri hörmətli Azər Əmiraslanova söz vermək istəyirəm. Azər müəllim, buyurun, məlumatı, rəyi bildirin.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Öncə mən də hörmətli həmkarlarımızın bayram təbriklərinə qoşuluram. Arzu edirəm ki, Novruz öz gəlişi ilə dövlətimizə, xalqımıza, ölkəmizə xeyir, uğur gətirsin.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilməsini nəzərdə tutur. Məsələnin mahiyyəti ilə bağlı ilk öncə onu qeyd etmək istərdim ki, cənab Prezident tərəfindən 2022-ci ildə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı təsdiq edilmişdir. Bu proqramın təsdiq edilməsindən sonra işğaldan azad edilmiş ərazilərdə qayıdışla, bərpa ilə bağlı proseslərin sürətləndirilməsi zərurəti yaranmışdır. Bunu təmin etmək, təbii ki, ilk növbədə işğaldan azad edilmiş ərazilərə sahibkarlıq subyektlərinin, təsərrüfat subyektlərinin cəlb edilməsini həvəsləndirmək, eyni zamanda, bu ərazilərdə görülən

işlərin maya dəyərini aşağı salmaq üçün dövlət tərəfindən güzəştlərin tətbiq edilməsi təşəbbüsü irəli sürüldü və ilk növbədə vergi güzəştləri tətbiq olundu. Vergi Məcəlləsində dəyişikliklərdən sonra ən mühüm vergi növləri – mənfəət, gəlir, torpaq, əmlak, sadələşdirilmiş vergilər üzrə güzəştlər tətbiq edildi və 2023-cü il yanvarın 1-dən 2033-cü il yanvarın 1-dək olan bir dövrü əhatə edir.

Daha sonra işğaldan azad olunmuş ərazilərin rezidentləri üçün ən mühüm güzəşt məhz idxal üzrə əlavə dəyər vergisi güzəştləri idi və bir də idxal rüsumundan azad olunma ilə bağlı güzəşt tətbiq edildi. Bir tərəfdən, idxal üzrə ƏDV güzəşti Vergi Məcəlləsində, idxal rüsumu üzrə güzəşt isə "Gömrük tarifi haqqında" Qanunda öz əksini tapdı. Məsələ bundadır ki, hər iki istiqamət üzrə güzəştin tətbiq edilməsi təsdiqedici sənədlərin alınmasından asılıdır. Bu təsdiqedici sənədləri isə bugünkü təcrübəyə, praktikaya əsasən İqtisadiyyat Nazirliyi təqdim edir. Bu təsdiqedici sənəd özü icazə xarakterlidir. Məhz "Lisenziyalar və icazələr haqqında" Qanunun 3-cü əlavəsinin 75-ci bəndində bu icazə, təsdiqedici sənəd öz əksini tapır. Həm idxal rüsumu, həm də idxal ƏDV-si üzrə vergi güzəştlərinin də təsdiqedici sənədin məzmununda öz əksini tapması nəzərdə tutulur.

Təqdim olunan qanun layihəsinin mahiyyəti bundan ibarətdir. Sadəcə olaraq, bir də qeyd etmək istərdim ki, hər iki pozisiyadan başqa, bu güzəştlər texnika, texnoloji avadanlıqlar, qurğular, xammal və materiallar üzrə nəzərdə tutulur. Eyni ilə vergi güzəştlərinin müddəti qədər də təsdiqedici sənədin qüvvədə olma müddəti də 10 ili əhatə edir. Yəni 2023-cü il yanvarın 1-dən 2033-cü il yanvarın 1-dək olan dövrü.

Bu Sizin də qeyd etdiyiniz kimi, bir oxunuşda qəbul edilməli layihədir. Hörmətli həmkarlarımızı layihənin dəstəklənməsinə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Müzakirəyə keçirik. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. Xanım sədr, mən də Sizi, həmkarlarımı, media nümayəndələrini və parlamentin bütün üzvlərini bu gözəl bayram münasibəti ilə ürəkdən təbrik edirəm.

Hörmətli xanım sədr, işğaldan azad edilmiş ərazilər üzrə iqtisadi fəaliyyət sahələri və mal nomenklaturası üzrə hüquqi şəxslər və sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər idxal zamanı əlavə dəyər vergisindən və rüsumdan azad edilir. Bu dəyişiklik çox mütərəqqidir və dəstəkləyirəm. Məhz bu cür müsbət dəyişikliklər Qarabağ zonasında iqtisadi aktivliyin artmasına səbəb olur.

Azərbaycanın müxtəlif şəhər və rayonlarında isə iqtisadi fəallıq xeyli azalmış, bəzi iş yerləri bağlanmışdır. Bir çox iş adamları rayon və şəhərlərdə zavod və fabriklərini bağlayaraq Qarabağ zonasına yatırım edib. Prinsipcə bu, çox yaxşıdır, həm də narahatedicidir. Azərbaycanın bir nöqtəsində iş yerlərinin bağlanması əvəzinə digər nöqtəsində açılması nə dövlətin, nə də hökumətin marağında ola bilməz. Ölkəmizin müxtəlif yerlərində iqtisadi fəallığın kəskin azalması müşahidə olunur və xarici sərmayələrin cəlb olunmasında da problemlər var. Dediyim bu məsələləri nəzərə alaraq, müxtəlif iqtisadi fəaliyyət üzrə ciddi vergi güzəştlərinin tətbiq edilməsini təklif edirəm. Biz elə etməliyik ki, yerli və xarici sərmayədar pulunu və biznesini Azərbaycana köçürmək istəsin. Bunun üçün ikinci addım olaraq iqtisadi fəaliyyət sahəsində məhkəmə siste-

minin 100 faiz şəffaflığına nail olmalı və onlara inamı artırmaq lazımdır.

Üçüncü, Vergi Məcəlləsini bütövlükdə yenidən yazmalı və ən azı 60–70 faiz sadələşdirməliyik ki, onu oxuyan iş adamı və yaxud adi vətəndaş çətin alqoritmik hesablamalar içində başını itirməsin, sadə dildə onu anlamağı bacarsın. Vahid və sadə bir məcəllə.

Dördüncü bənd olaraq əmlak toxunulmazlığı faktiki və konkret olaraq toxunulmaz olmalı və bu sahədə nə yerli, nə də xarici sərmayədarlarda zərrə qədər də şübhə olmamalıdır.

Sonuncu olaraq isə ən vacib məqamlardan birini də qeyd edim. İş yeri yaradacaq bizneslərin qurulması zamanı infrastruktur xərcləri – qaz, işıq, su, kanalizasiya, torpaq sənədləşməsi, icazələrin alınması böyük xərc aparır. Deyək ki, bir nəfərin 5 milyon manatı var və yatırım etmək istəyir. Əgər güzəştli sənaye parklarında edərsə, o zaman yəqin ki, xərcləri də az olacaq və ona sərf edə bilər. Amma hər kəs də sənaye ilə məşğul olmaq istəmir və yaxud digər şəhər və rayonlarda biznes qurmaq istəyir. Bu zaman onun 5 milyonunun, demək olar ki, hamısı alğı-satqıya, ödənişlərə və icazələrə gedir. Adamın iş görmək həvəsi də ölür. Onun üçün də təklif edirəm ki, infrastruktur layihələri dövlət tərəfindən həyata keçirilsin. Konkret biznes layihələrini hazır paket şəklində, simvolik qiymətə sərmayəçilərə satsınlar. Bu təcrübə də bütün dünyada var, qonşu ölkələrdə də var. Onların üzərinə isə konkret sərmayə və konkret sayda iş yeri yaratmaq öhdəliyi qoyulsun. Ümid edirəm ki, İqtisadiyyat Nazirliyi bu təklifimə cavab verəcəkdir. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.26 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Bu dəfə məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Vüqar Bayramova söz verirəm. Vüqar müəllim, buyurun.

**Vüqar Bayramov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli xanım sədr, mən də təbriklərə qoşuluram, Sizi və hörmətli həmkarlarımı təbrik edirəm.

Hörmətli xanım sədrin qeyd etdiyi kimi, təqdim olunan qanun layihəsi bir oxunuşda qəbul ediləcək. Qanun layihəsi 3 istiqamətdə dəyişiklikləri özündə ehtiva edir. Bu dəyişikliklərdən biri bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin satışı, eləcə də hərraca və müsabiqəyə çıxarılan bələdiyyə mülkiyyətində olan torpaqların ilkin qiymətinin müəyyən olunması sahəsində səlahiyyətlərin

tənzimlənməsi ilə bağlıdır. Nəzərə alsaq ki, "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanun qəbul edildikdən sonra, təbii, bir sıra qanunlarda dəyişikliklərin edilməsinə ehtiyac yarandı. Bu qanun layihəsindəki dəyişikliklərdən biri də bələdiyyə mülkiyyətində olan torpaqların artıq bu qanun layihəsi qəbul olunduqdan sonra bələdiyyələr tərəfindən deyil, qiymətləndiricilər tərəfindən qiymətləndirilməsi ilə bağlıdır. Belə ki, qanun layihəsinin qəbul edilməsi və təsdiq olunmasından sonra bələdiyyə mülkiyyətində olan və müsabiqəyə, hərraca çıxarılan torpaqlar qiymətləndiricilər tərəfindən qiymətləndiriləcək. Bu, bütövlükdə, bu sahədə şəffaflığın daha da gücləndirilməsinə, sui-istifadə hallarının minimuma endirilməsinə və bələdiyyə mülkiyyətində olan torpaqların daha real qiymətləndirilməsinə imkan yaradacaq.

Bu baxımdan məhz yeni dəyişikliklərə uyğun olaraq, həm Torpaq Məcəlləsində, həm "Torpaq bazarı haqqında", həm də "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlarda, o cümlədən bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydalarında dəyişikliklər həyata keçiriləcək.

İkinci istiqamət qiymətləndirmə fəaliyyətinə uyğun olaraq, "qiymətləndirici" və "qiymətləndirici təşkilat" anlayışlarından istifadə edilməsi ilə bağlıdır. Belə ki, nəzərə alsaq, artıq mövcud qanunvericilikdə "müstəqil qiymətləndirici" və "müstəqil ekspert" anlayışlarından istifadə olunurdu, artıq bu anlayışların əvəzinə "qiymətləndirici" və "qiymətləndirici təşkilat" anlayışlarından istifadə olunacaq. Bu da birbaşa onunla bağlıdır ki, "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanun qəbul edildikdən sonra qiymətləndirmə fəaliyyəti ilə məhz Qiymətləndirmə Palata-

sının üzvü olan şəxslər məşğul ola bilərlər. Təbii ki, həmin qanunun tələblərinə uyğun olaraq, digər qanunverici aktlarda dəyişikliklərin həyata keçirilməsi reallaşır.

Eyni zamanda, qanun layihəsi bir sıra uyğunlaşdırma və terminlərin dəqiqləşdirilməsi kimi düzəlişləri özündə ehtiva edir.

Qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində geniş müzakirə olunmuş və Milli Məclisin plenar iclasına tövsiyə olunmuşdur. O baxımdan hörmətli həmkarlarımızı qanun layihəsini dəstəkləməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, bu qanun layihəsinə daha 3 komitədə baxılıb. Bu komitələr Aqrar siyasət komitəsidir, Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir və Regional məsələlər komitəsidir. Mən indi Aqrar siyasət komitəsinin sədri hörmətli Tahir müəllimə söz vermək istəyirəm. Tahir müəllim, buyurun, komitənin rəyini bildirin.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, mən də deputat həmkarlarımın təbriklərinə qoşuluram. Sizi, deputat həmkarlarımı bayram münasibəti ilə təbrik edirəm.

Qanun layihəsi komitənin iclasında müzakirə olunub. Komitənin rəyi müsbətdir. Səsə qoymaq olar. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun.

İndi isə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz vermək istəyirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hüquq siyasəti və dövlət quruculuğu komitəsi profilinə uyğun olaraq, Mülki Məcəllədə və "İcra haqqında" Qanundakı uyğunlaşdırma xarakterli dəyişikliklərə müsbət rəy vermişdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bu layihəyə Regional məsələlər komitəsində də baxılıb. Xahiş edirəm, sədr müavini hörmətli Nurlan Həsənov, buyurun, məlumat verin.

**Nurlan Həsənov,** *Milli Məclisin Regional məsələlər komitəsi sədrinin müavini.*

Sağ olun, Sahibə xanım. Regional məsələlər komitəsində də bu qanun layihəsinə baxılmışdır. Komitə lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Müzakirəyə heç kim yazılmayıb. Ona görə mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.31 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz, əslində, bizim gündəliyimizdə 4-cü məsələdir. "Ətraf mühitin mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Mən də xalq arasında ilaxır çərşənbə kimi tanınan torpaq çərşənbəsi münasibəti ilə hər birinizi səmimi qəlbdən təbrik edirəm. Hər kəsə can sağlığı, ruzi, bərəkət arzulayıram.

Qanun layihəsi, Sizin də qeyd etdiyiniz kimi, uyğunlaşdırma xarakterlidir. Sadəcə olaraq, qanunun iki maddəsində – 52-ci və 57-ci maddələrində "dövlət ekoloji ekspertizanın obyektləri barədə ekoloji ekspertiza" sözləri "ekoloji ekspertiza" sözləri ilə əvəz olunur. Deputat həmkarlarımı müsbət səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Sadiq müəllim, sağ olun. Hörmətli həmkarlar, çıxışa heç kim yazılmayıb. Münasibət bildirməyinizi sizdən xahiş edəcəyəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.32 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələ "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən sözü Vüqar Bayramova

verirəm. Vüqar müəllim, buyurun.

**Vüqar Bayramov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, təqdim olunan qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır.

Nəzərə alaq ki, "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Qanunda əlilliyi olan şəxslərə kompensasiyanın ödənilməsi nəzərdə tutulurdu. Amma sosial müavinətlərin unifikasiyası ilə əlaqədar olaraq "Sosial müavinətlər haqqında" Qanunda məhz qəza nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərə hər il müalicə üçün birdəfəlik vəsaitin, yəni müavinətin ödənilməsi və buna uyğun olaraq, təbii ki, kompensasiyanın ödənilməsi nəzərdə tutulmamışdır. Amma eyni zamanda, 2008-ci il sentyabrın 1-də cənab Prezidentin uyğun fərmanları ilə qəza nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərə aylıq Prezident təqaüdünün verilməsi nəzərdə tutulub. Bu təqaüdlərlə yanaşı, həmin vətəndaşlarımıza əmək pensiyası da ödənilib. O baxımdan təqdim olunan qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Bu qanun layihəsi, eyni zamanda, bütövlükdə, qanunvericilikdə olan uyğunsuzluqların aradan qaldırılmasına xidmət edir.

Qanun layihəsi Əmək və sosial siyasət komitəsində geniş müzakirə edilmiş və dəstəklənmişdir. Hörmətli həmkarlarımızdan qanun layihəsini dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, çıxışa yazılan yoxdur. Məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.35 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələ 6-cı məsələdir. “Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Yenə də mən sözü komitənin sədri Azər müəllimə verəcəyəm. Azər müəllim, buyurun, məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Qanun layihəsi “Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” 2023-cü il 8 dekabr tarixli Qanunun icrası ilə əlaqədar hazırlanmışdır. 33 qanunda uyğunlaşdırma xarakterli dəyişiklik edilməsini nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, Rəqabət Məcəlləsinin qəbul edilməsi ölkəmizdə rəqabətli mühitin, sahibkarlıq fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması, haqsız rəqabətin qarşısının alınması, inhisarçılıqla daha effektiv mübarizənin təmin edilməsi məqsədini güdürdü. Bu məcəllənin qəbulu ilə onun tənzimlənməsi sahəsinə aid

olan bir neçə qanun, xüsusi ilə də “Antiinhisar fəaliyyəti haqqında, “Haqsız rəqabət haqqında” və “Təbii inhisarlar haqqında” qanunlar qüvvədən düşmüşdür.

Təklif olunan dəyişikliklər, əsasən, termin və anlayışların dəqiqləşdirilməsini, yuxarıda qeyd olunan 3 qanunun ləğvi ilə əlaqədar ayrı-ayrı qanunlarda verilmiş istinadların yeni məcəlləyə uyğunlaşdırılmasını, bir sıra qanunlara rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətinin Rəqabət Məcəlləsində nəzərdə tutulan qaydada həyata keçirildiyi barədə normanın əlavə edilməsini və bu qəbildən olan uyğunlaşdırma xarakterli digər düzəlişləri nəzərdə tutur.

Qanun layihəsi uyğunlaşdırma xarakterlidir. Həmkarlarımızdan qanunu dəstəkləmələrini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, bu qanun layihəsinə üç komitədə də baxılmışdır. Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi. Sadiq müəllim, xahiş edirəm, Siz komitənin rəyini bildirin.

**Sadiq Qurbanov.** Çox təşəkkür edirəm. Azər müəllim məlumat verdi. Prinsipcə bu, uyğunlaşdırma xarakterlidir. Bu qanun layihəsi bizim də komitəmizə aid olan Su Məcəlləsində və “Energetika haqqında” Azərbaycan Respublikasının Qanununda 2 kiçik dəyişikliyi özündə ehtiva edir. Buna da müsbət səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Əli müəllim, Sizdən xahiş edəcəyəm, buyurun, rəyinizi bildirin.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli sədr, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin profilinə uyğun

olaraq, Mülki Məcəllədə və “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Qanunda uyğunlaşdırma xarakterli dəyişikliklərin edilməsi nəzərdə tutulur. Komitəmizin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. İnsan hüquqları komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli sədr. Bizim komitə “İnformasiya əldə etmək haqqında” Qanunda 2 maddənin dəyişilməsinə baxıbdır. Rəyimiz müsbətdir. Xahiş edirik, nəzərə alasınız.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ, əslində, növbəti 4 məsələ birinci oxunuşda olan qanun layihələridir. Yenə də xatırladım ki, birinci oxunuşun tələblərini nəzərə alasınız.

7-ci məsələ “İstehlakçıların hüquqlarının müdafiəsi

haqqında" Qanunda və digər 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, özünüz məlumat verəcəksiniz. Buyurun, qanun layihəsi haqqında məlumat verin.

**Azər Əmiraslanov.** Çox sağ olun, xanım sədr. Sizin də qeyd etdiyiniz kimi, təqdim edilmiş qanun layihəsi 4 normativ hüquqi aktda – "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Dərman vasitələri haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikası qanunlarında dəyişikliklərin edilməsini nəzərdə tutur.

Ümumiyyətlə, bu qanun layihəsi spesifik bir layihədir. Məsələ ilə bağlı şərh vermək üçün ilk növbədə onu qeyd etmək istərdim ki, bu gün reklam fəaliyyətinin yeni platformaları yaranmaqdadır. Əslində, təqdim edilmiş qanun layihəsi də reklam fəaliyyətindəki yeniliklərlə bağlıdır.

Təqdim olunan layihə ilk növbədə onu nəzərdə tutur ki, rəqəmsal platforma yeni bir reklam daşıyıcısı kimi təqdim olunur. Rəqəmsal platformadakı reklamlar "Reklam haqqında" Qanunun tətbiq dairəsinə aid edilir. Eyni zamanda, reklam haqqında qanunvericiliyə "rəqəmsal platforma təsisçisi" adlanan yeni bir anlayış gətirilir. Reklam təsisçisi və yaxud rəqəmsal platforma təsisçiləri reklamın subyekti kimi müəyyən edilir. Qeyd etmək lazımdır ki, "rəqəmsal platforma təsisçisi" dedikdə, əslində, maddi qazanc qarşılığında öz nüfuzundan istifadə etməklə rəqəmsal platformada öz reklam fəaliyyətini həyata keçirən şəxslər nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, de-fakto bu gün rəqəmsal

platformada reklam fəaliyyəti mövcuddur. Lakin bunun rəsmi bir formata, yəni hüquqi müstəviyə keçirilməsinə ehtiyac var. Çünki bu sahədə münasibətlərin tənzimlənməsi zərurəti yaranır. Həm reklam verən, həm də reklamçının özü, hər iki tərəfin arasında münasibətlərin hüquqi çərçivədə tənzimlənməsi məhz hüquqi əsasların yaradılmasını diktə edir.

Rəqəmsal platformada reklam münasibətləri təqdim edilən bu layihə ilə tənzimlənmiş olacaqdır. Onu da qeyd etmək lazımdır ki, bu, həm də bir tərəfdən, reklam istehlakçılarının hüquqlarının qorunmasına xidmət edir, həm də, bütövlükdə, haqsız rəqabət hallarının qarşısını alır. Bu, spesifik bir qanun layihəsidir. Bu, reklam fəaliyyətinin yeni bir istiqamətinin tənzimlənməsi məqsədini güdür. Hesab edirik ki, belə bir layihə həm də bugünkü inkişafımızın reallıqları ilə bağlıdır. Sadəcə olaraq, hüquqi çərçivə olmadığı, hüquqi əsaslar müəyyən edilmədiyi halda, bu sahədə də sui-istifadə halları olur. Xüsusi ilə də reklam fəaliyyətində bu kimi sui-istifadə hallarının müşahidə edildiyini görə bilirik. Xüsusi ilə də istehlakçıların aldadılması, sahibkarların və sair.

Bu baxımdan belə bir qanun layihəsini biz dəstəkləyirik və birinci oxunuşda hörmətli həmkarlarımız tərəfindən dəstəklənməsini də məqsədəuyğun hesab edirik. Sağ olun.

**Sədrlik edən.** Ətraflı məlumata görə sağ olun, Azər müəllim.

Aqrar siyasət komitəsində də baxılıb. Tahir müəllim, xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Tahir Rzayev.** Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, Azər müəllim hərtərəfli məlumat verdi. Qanun

layihəsi komitədə müzakirə olunub, rəy müsbətdir. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim.

Bu məsələyə Səhiyyə komitəsində də baxılıb. Mən indi hörmətli Əhliman müəllimə söz vermək istəyirəm. Əhliman Əmiraslanov. Buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Mən də fürsətdən istifadə edərək sizləri bayramlar münasibəti ilə ürəkdən təbrik edirəm.

Qanun layihəsi ilə bağlı istərdim qeyd edim ki, təklif olunan dəyişikliklər "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda da öz əksini tapıbdır. Bu qanuna da şamil olunur. Qanun layihəsi Səhiyyə komitəsində geniş müzakirə olunmuşdur. Biz qanun layihəsini dəstəkləyirik. Qanun layihəsinin səsə qoyulmasını xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Əhliman müəllim.

Hörmətli həmkarlar, müzakirəyə keçirik. Yazılanlar var. Elçin Mirzəbəyli. Elçin müəllim, buyurun.

**Elçin Mirzəbəyli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media mənsubları. Mən də həmkarlarımın təbriklərinə qoşularaq, hörmətli xanım sədr, Sizi, bütün həmkarlarımı, media mənsublarını xalqımızın əziz bayramları münasibəti ilə təbrik edirəm. Hər kəsə sağlam həyat, firavan ömür arzulayıram. Tanrı xalqımızı, dövlətimizi qorusun.

"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Dərman vasitələri

haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdir edir və dəstəklədiyimi bildirirəm. Dəyişikliklərin reklam daşıyıcısı olan rəqəmsal platformalarda baş verən və bəzən hətta cinayət məsuliyyəti yaradan özbaşınalığa, xaosa son qoyulması istiqamətində növbəti addım olduğunu düşünürəm.

Dəyişikliklərdə istehlakçıların mal, iş, xidmət haqqında məlumat almaq hüququ, reklamla bağlı əsas anlayışlar, reklama dair ümumi tələblərin daha dəqiq, geniş çağırışlar da nəzərə alınmaqla ifadə olunması da təqdirəlayiq yanaşmadır.

Bununla yanaşı, qanunvericilik təşəbbüsünün konseptual məzmununu nəzərə alaraq, bir neçə məqama diqqət çəkmək istəyirəm. Müzakirəyə çıxarılan dəyişikliklərdə gizli reklam anlayışının genişləndirilməsini və buraya reklam hüququ əsasında sponsorluq və tərəfdaşlıq qeydlərinin əlavə olunduğunu da müşahidə edirik. Lakin gizli reklamlar özünü yalnız reklam daşıyıcısı olan rəqəmsal platformalarda, o cümlədən sosial şəbəkələrdə, radio və televiziya kanallarında, media resurslarında büruzə vermir. Ən böyük və effektiv, həm də təhrikedici xarakter daşıya bilən gizli reklamlar dərman şirkətləri ilə işbirliyində olan həkimlərin pasiyentlərə yazdıqları reseptlərdədir. Bu problemdən də hər kəsin məlumatı olduğu üçün detallarına diqqət çəkib vaxtınızı almayacağam. Lakin bu qəbildən olan problemlərin qarşısının alınması üçün nəzarət imkanları yaradan və şəffaflığı təmin edə biləcək mexanizmlərin yaradılmasını zəruri hesab edirəm. Belə mexanizmlərdən biri də reseptlərin istisnasız olaraq Səhiyyə Nazirliyi və TƏBİB tərəfindən yaradılması vacib olan onlayn platforma üzərindən verilməsi və həmin

platformanın qanunların icrasına nəzarət edən qurumlar üçün açıq olmasıdır. Yalnız bu halda şəffaflıq təmin edilə bilər və beləliklə, istehlakçıların hüquqları tam mənada qoruna bilər.

Bir neçə iclas öncə hörmətli Musa Quliyev tamamilə haqlı olaraq bu gün müzakirə etdiyimiz qanun layihəsinin də bəzi məqamlarını əhatə edən problemlərə, telekanallar vasitəsi ilə ayrı-ayrı həkimlərin, tibb müəssisələrinin müxtəlif məzmunlu verilişlərdə insanların emosiyalarına toxunmaqla, onları təlaşlandırmaqla reklam edilməsinə diqqət çəkdi.

Qeyd edim ki, bu problem bu gün bir neçə telekanal və radio istisna olmaqla, bütün audiovizual yayımçılarda nəzərə çarpır və hətta əsas gəlir mənbələrindən birinə çevrilib. Səhər saatlarından etibarən radiolardan, telekanallardan xəstəliklərin adı, onların simptomları təlaşlandırıcı, panika yaradan bir formada, həyəcanlı səslə və musiqinin müşayiəti ilə davamlı olaraq təkrarlanır. İnsanlara psixoloji təsir göstərilir və onlara xəstə olduqları aşılanır. Hətta tamamilə sağlam olan insan belə total psixoloji təzyiqin altında özünün xəstə olduğunu düşünə bilər.

Qeyd edim ki, Rusiyada 2014-cü ildən dərman vasitələrinin, tibbi xidmətlərin, o cümlədən profilaktika və diaqnostikanın, müalicə və tibbi reabilitasiya üsullarının, habelə istifadəsi xüsusi hazırlıq tələb edən tibbi məhsulların reklamı qadağan edilib. Qardaş Türkiyənin Həkimlik Peşəsi Etik Qaydalarının 11-ci maddəsində deyilir: "həkim məsləyini yerinə yetirərkən reklam edə, ticari reklamlara vasitə ola, çalışmalarını ticari bir görüntü uyğulaya, insanları təlaşlandıran, yanlış yönləndirən, haqsız rəqabətə

yol açan davranışlara yol verə bilməz”. Bu baxış bucağı Türkiyənin tibb, reklam və istehlakçıların hüquqları ilə bağlı bütün qanunvericilik aktlarında yer alıb və problem kökündən birdəfəlik həll olunub. Bu səbəbdən də eyni problemlərin aradan qaldırılması üçün məsələnin hissə-hissə deyil, birdəfəlik həll edilməsinin zəruriliyini, qardaş Türkiyənin tibb sahəsindəki normativ hüquqi aktlarının izahında verildiyi kimi, bütün müvafiq hüquqi və etik qaydalara uyğun olaraq, səhiyyə sahəsində reklamın aparılmasının qəti qadağan edilməsinin vacib olduğunu düşünürəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, media mənsubları. Hörmətli xanım sədr, altıncı çağırışda “Reklam haqqında” Qanun müzakirə olunan zaman bir neçə dəfə mən çıxış etmişdim. Həmin zaman da reklamla bağlı 3 ay ərzində bir çox qanunvericilik aktlarına lazım olan dəyişikliklərlə bağlı bir layihə və arayış hissəsini də hazırladım. Mən onu hörmətli Tahir müəllim Mirkişiliyə təqdim etmişdim. Sonra Azər müəllim Əmiraslanovla da danışıb ona da bu barədə məlumat vermişdim. Mən bu məsələ ilə bağlı təkliflərimi bir daha səsləndirmək istəyirəm və nəzərə almağınızı xahiş edirəm ki, bunun üzərində, doğrudan da, 3 ay çox ciddi əziyyət çəkmişəm. Mən ikinci oxunuşda konkret o təklifləri verəcəyəm. Amma icazənizlə, indi birinci oxunuşun qaydalarına uyğun danışmaq istəyirəm.

Azərbaycan Respublikasının ərazisində reklam fəaliyyətinin subyektləri arasında reklamın sifarişi, istehsalı, yayımı, istehlakı ilə bağlı yaranan münasibətlərə 2015-ci

ildə qəbul olunmuş “Reklam haqqında” Qanun tətbiq edilir. Bu qanun müasir dövrümüzün tələbləri və həyatımıza daxil olan yeni texnologiyaların tətbiqi baxımından ehtiyaclara tam olaraq cavab vermir.

Təklif olunan dəyişikliklər yaxşıdır, təbii ki, dəstəkləyirəm, amma təkmilləşmə ilə bağlı xeyli təkliflərim də var.

Ölkədə reklam fəaliyyətinin təşkili və tənzimlənməsi üçün qüvvədə olan qanunvericilik aktları “Reklam haqqında” Azərbaycan Respublikasının Qanunundan, Azərbaycan Respublikası Prezidentinin fərmanından, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarından, Dövlət Reklam Agentliyinin normativ sənədlərindən və digər normativ sənədlərdən ibarətdir.

“Reklam haqqında” Qanunun bəzi maddələrində göstərilən icazə icraatı sahənin monopoliyasına, sui-istifadə hallarına imkan verən vəziyyət yaradır. Belə ki, kimin, daha doğrusu, hansı sahibkarın, yaxud kommersiya şirkətinin bazara buraxılması müvafiq icra hakimiyyətinin yaratdığı Dövlət Reklam Agentliyinin müstəqil qərarından asılıdır. Dövlət Reklam Agentliyi qəbul etdiyi qərarını əsaslandırmaya da bilər.

Burada bir haşiyə çıxaraq qeyd etmək istəyirəm ki, bu, keçmiş rəhbərliyə aiddir, mənim hazırda dediklərimin yeni rəhbərliyə aidiyyəti yoxdur. Çünki onlarla heç bir təmasım olmayıb, amma bilirəm, mənə çatan xəbərlər budur ki, onlar bu təkliflərə açıqdırlar və xeyli mütərəqqi addımlar da atıblar.

Reklam fəaliyyəti ilə bağlı icazə icraatının məlumatlandırma icraatı ilə əvəzlənməsi əlverişli biznes mühitinin yaranmasına, yeni iş yerlərinin açılması ilə əhalinin məşğulluğuna, sahibkarlığın inkişafına, vergi qismində dövlət

büdcəsinə vəsaitlərin daxil olmasına, ədalətli rəqabətin formalaşmasına, ölkəmizdə sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasına müsbət təsir edə bilər. Müvafiq dövlət və inzibati orqanların onlara həvalə edilmiş fəaliyyət sahəsi üzrə qanunvericilik normalarının tətbiqi və eləcə də səlahiyyət dairəsi üzrə işgüzar əlaqələndirmə icra müddətinin operativliyinə imkan yarada bilər.

Reklam fəaliyyəti ilə bağlı icazə icraatının məlumatlandırma icraatı ilə əvəzlənməsi vacibdir. Bu, müvafiq icra hakimiyyətinin yaratdığı qurumun sahəyə nəzarətini gücləndirə bilər. Fəaliyyət sahəsi üzrə mümkün qanun və qayda pozuntularının aşkarlandığı halda, verilən müddət ərzində pozuntular aradan qaldırılmaqla müvafiq icra hakimiyyətinin yaratdığı qurumun akt və qərarı ilə konkret fəaliyyət növü və sahəsi üzrə reklam xidməti dayandırıla bilər.

"Reklam haqqında" Qanunun müvafiq maddələrində, eləcə də Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin müvafiq maddəsində təklif etdiyimiz dəyişikliklər layihəsində bunlar əksini tapıb. Mən bunu ikinci oxunuşda qeyd etmək istəyirəm.

Eyni zamanda, bir müddət əvvəl daxil olan şikayətlərdən məlum oldu ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin reklam fəaliyyəti ilə bağlı qərarları Dövlət Reklam Agentliyi tərəfindən fərqli şəkildə tətbiq edilir və hətta qüvvədən düşmüş qərarın tələbləri əsas gətirilərək reklam fəaliyyəti ilə məşğul olmaq istəyən sahibkar və ya kommersiya təşkilatı da bazara buraxılmır. Şikayətlərin birindən məlum olub ki, "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281 nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Qanunun tətbiq

edilməsi barədə 1997-ci il 24 noyabr tarixli 644 nömrəli fərman, "Reklam yayımına icazə (razılıq) verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 noyabr tarixli 596 saylı Fərmanı ilə təsdiq edilmiş qaydaların 4.4-cü bəndinə əsasən "Nəqliyyat vasitələrində reklam lövhələrinin, lövhəciklərinin, işıqlanan tabloların və bunlara bənzər reklamların yerləşdirilməsinə yol verilmir" – əsas gətirilərək sahibkara reklam fəaliyyəti ilə məşğul olmaq əngəllənib.

Halbuki Dövlət Reklam Agentliyinin əsaslandığı "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281 nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Qanunun tətbiq edilməsi barədə Prezidentin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli fərmanının ləğvi haqqında Prezidentin 2015-ci il 14 iyul tarixli 554 saylı bir fərmanı olub və imzalanıb. "Reklam yayımına icazə (razılıq) verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə 2001-ci il 3 noyabr tarixli 596 nömrəli Fərman Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 iyul tarixli 2232 saylı Fərmanı ilə ləğv edilib.

Digər tərəfdən, reklam fəaliyyəti ilə bağlı qanunvericilik aktlarında startap, yeni texnoloji layihələrin yoxlanılması, tətbiqinə dair konkret göstəriş olmadığına görə, innovasiya xarakterli layihə, mexanizmlər reklam xidməti dövriyyəsinə buraxılmır. Avtomobillərdə və ya müxtəlif tipli qoşqu, yarımqoşqularda istifadəsi mümkün olan yeni texnoloji startap, innovasiya xarakterli layihələrin yoxlanılması, tətbiqi ilə bağlı müvafiq razılığın verilməsi məsələsi aidiyyəti məsul qurumlar – Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi və Dövlət Reklam Agentliyi arasında mübahisəyə, fikir ayrılığına

səbəb olur. Təbii ki, bu da nəticə etibarı ilə ölkədə sosial-iqtisadi vəziyyətə təsir edir. Əlbəttə ki, reklam fəaliyyəti üzrə, istifadəsi mümkün olan yeni texnoloji, innovasiya xarakterli layihələrin yoxlanılmasına dair aidiyyəti məsələ konkretləşməlidir.

Nazirlər Kabinetinin 2016-cı il 18 fevral tarixli 67 nömrəli qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrində reklamın yerləşdirilməsi Normaları"nın müvafiq bəndinə əsasən, bu normalar "Reklam haqqında" Qanunun müvafiq maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikası ərazisində müvafiq qaydada dövlət qeydiyyatından və texniki baxışdan keçirilmiş nəqliyyat vasitələrinin reklam daşıyıcısı kimi istifadə edilməsi normalarını müəyyən edir.

Nazirlər Kabinetinin 67 saylı qərarına əsasən, "nəqliyyat vasitələrində reklam yaradıcılıq, dizayn, çap keyfiyyəti baxımından, görüntüyə maneə törətməyən texniki hədlər daxilində nəqliyyat vasitələrinin üzərində və ya salonunda yerləşdirilir".

Nəqliyyat vasitələri dedikdə isə Nazirlər Kabinetinin həmin 67 saylı qərarının müvafiq bəndində yük, yük-sərnişin, yük-furqon qoşqu və yarımqoşquların banının yan səthlərində reklam yerləşdirilən nəqliyyat vasitələri nəzərdə tutulur.

Ancaq Dövlət Reklam Agentliyi həmçinin Nazirlər Kabinetinin 67 saylı qərarının müvafiq bəndlərində nəzərdə tutulmuş yük, yük-sərnişin, yük-furqon qoşqu və yarımqoşquların banının yan səthlərində göstərilmiş qaydalara uyğun yerləşdirilən reklamın tətbiqinə "Reklam yayımına icazə (razılıq) verilməsi Qaydaları"nın 4.4-cü bəndinə əsasən "nəqliyyat vasitələrində reklam lövhələrinin, lövhəciklərinin, işıqlanan tabloların və bunlara bənzər

reklamların yerləşdirilməsinə yol verilmir" tələbini əsas gətirərək razılıq vermir.

"Reklam yayımına icazə (razılıq) verilməsi Qaydaları"nın 4.4-cü bəndi Nazirlər Kabinetinin 67 saylı qərarının 5.3-cü bəndinə açıq ziddiyyət təşkil etdiyindən, "Reklam yayımına icazə (razılıq) verilməsi Qaydaları"nın 4.4-cü bəndi Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsinə əsasən gərək ləğv olunsun.

Hörmətli xanım sədr, mən hazırladığım layihəni qısaca olaraq bu şəkildə təqdim etdim. İkinci oxunuşda bunu daha ətraflı, yazılı formada da komitəyə təqdim edəcəyəm. İstərdim ki, bu məsələlər ciddi şəkildə nəzərə alınsın. Mən bəlkə də 3 ildir, bu qanunun müzakirə olunmasını istəyirdim ki, bax, bunları deyə bilim.

Hörmətli xanım sədr, nəzərinizə çatdırmaq istəyirəm, mən parlament tarixində ən uzun çıxışımı etdim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Razi müəllim. Yaxşı ki, özünüz etiraf etdiniz. Heç qısaca danışmadınız. Ancaq onu da qeyd etməliyəm ki, bu, ikinci oxunuşun tələblərinə uyğun bir çıxış idi. Siz dediniz, o təklifləri Azər müəllimə də vermisiniz. Musa müəllimə də istinad etdiniz. Musa müəllimə, əslində, Elçin müəllim istinad etdi. Sonra bir yerdə bunların hamısına baxmaq olar.

Azər müəllim, əgər söz istəyirsinizsə, buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli Razi Nurullayevin təklifləri, təbii ki, maraq doğurur. Amma biz hər halda nəzərə almalıyıq ki, hazırda "Reklam fəaliyyəti haqqında" Qanunda dəyişikliyi müzakirə etmirik. Bu gün bizim müzakirə etdiyimiz qanun layihəsi, bir daha qeyd etmək istərdim, "İstehlakçıların

hüquqlarının müdafiəsi haqqında”, “Üzümçülük və şərabçılıq haqqında”, “Dərman vasitələri haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikası qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsidir. Biz bu gün müzakirə etdiyimiz qanun layihəsi ilə, sadəcə olaraq, rəqəmsal platformadakı reklam fəaliyyətini “Reklam fəaliyyəti haqqında” Qanunun təsir dairəsinə salırıq, yaxud da onu reklam fəaliyyətinin subyekti kimi tanıyırıq. Yəni burada, sadəcə olaraq, rəqəmsal platformada yeni reklam fəaliyyəti ilə bağlı bir istiqaməti müzakirə edirik.

Reklam fəaliyyətinin çoxlu komponentləri, çoxlu məsələlər var. Yəni biz o çoxsaylı təklifləri bu gün müzakirə etdiyimiz qanun layihəsi ilə əlaqələndirsək, artıq layihənin predmetindən uzaqlaşırıq. Amma gələcəkdə Razi müəllimin reklamla bağlı təkliflərini hər zaman müzakirə edə bilərik və ehtiyac olarsa, həmin qanunda müəyyən dəyişiklikləri də müzakirə etməyə hazırıq. Amma bu gün müzakirə etdiyimiz qanun layihəsinin predmeti tamamilə başqadır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Azər müəllim, sağ olun. Ancaq Razi müəllim elə çıxışının birinci dəqiqəsində dedi ki, “Reklam haqqında” Qanun haqqında danışacaq. Bizdə də vaxt var idi. Ona görə də Razi müəllim öz fikirlərini ortaya qoydu. Mən düşünürəm ki, Sizin hansısa ümumi işçi görüşünüzdə Razi müəllimin verdiyi təkliflərə də baxmaq olar. Bəli, bugünkü qanunla deyil, ümumi, “Reklam haqqında” Qanunla bağlı.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyacağam. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz 8-ci məsələyə keçirik. 8-ci məsələ "Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Musa müəllim, bu qanun layihəsi sizin komitənizin məsələsidir. Ona görə də hörmətli həmkarlar, mən Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa müəllim Quliyevə söz verirəm. Musa müəllim, buyurun, məlumat verin.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli mətbuat nümayəndələri. Mən də bütün təbriklərə qoşuluram, qarşıdan gələn Novruz və Ramazan bayramları münasibəti ilə sizləri təbrik edirəm.

"Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətlərin səmərəliliyinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması, ünvanlılığının, eləcə də ehtiyacı olan şəxslərin bu xidmətlərə əlçatanlığının təmin edilməsi məqsədi ilə hazırlanmışdır. Qanunun 8 maddəsində 12 dəyişiklik təklif olunur. Mahiyyət və məzmun etibarı ilə dəyişikliklər aşağıdakılardan ibarətdir.

Çətin həyat şəraitində olan şəxslərin vəzifələrinə "sosial işçilərin və sosial xidmətçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq" tələbi əlavə olunur. Başqa bir dəyişiklikdə sosial xidmətin göstərilməsi barədə müraciətə baxılması, dəyişdirilməsi və qərar qəbul edilməsi ilə bağlı mövcud prosedurlar konkretləşdirilir. Qanunda təklif olunan daha bir mühüm dəyişikliyə əsasən "eyni yaşayış məntəqəsində yaşamayan" ifadəsinin "Bakı şəhəri üzrə eyni inzibati ərazi vahidində", digər şəhər və rayonlar üzrə isə "eyni inzibati ərazi dairəsində" ifadəsi ilə əvəz edilməsi xidmətdən istifadə edən vətəndaşların əhatə dairəsinin genişlənməsinə töhfə verəcəkdir.

Hörmətli həmkarlar, məsələ bundadır ki, "Sosial xidmət haqqında" Qanun qəbul edilərkən eyni yaşayış məntəqəsində yaşayan, yaxın qohumuna xidmət etməyə borclu olan qohumu olmadığı halda, şəxs sosial xidmətə götürülür. Amma Bakı şəhəri, bütövlükdə, bir yaşayış məntəqəsi kimi götürüldükdə olduqca böyük bir ərazidə eyni qohumun yaşaması bu xidmətin praktik olaraq göstərilməsindən məhrum edirdi. Buna görə də bu dəyişikliyin edilməsi Bakı şəhərinin eyni rayonunda yaşamadığı halda, yəni qohumu Bakının hər hansı bir rayonunda yaşayırsa, ona həmin xidmətin göstərilməsinə imkan verəcəkdir. Eyni zamanda, günərzi xidmətlər, yəni yarımstasionar sosial xidmətə götürülən şəxslərin də dairəsi bu dəyişikliyə görə genişləndiriləcək və çətin həyat şəraitində olan bütün şəxslərə bu xidmət göstəriləcəkdir.

Başqa bir dəyişikliyə görə qanuna "sosial-mədəni xidmətlər" anlayışı gətiriləcəkdir ki, çətin həyat şəraitində olan şəxslərin sosial-mədəni həyata uyğunlaşmasına, asudə vaxtının səmərəli təşkil olunması üçün hüquqi baza

yaranacaqdır.

Qanunun 25-ci maddəsində edilən dəyişikliyə görə isə həm ödənişli, həm də ödənişsiz göstərilən sosial xidmətlər sosial xidmət alan şəxslə o xidməti göstərən şəxs arasındakı müqavilə ilə tənzimlənəcək. Yəni sosial xidmətin növü, həcmi, müddəti bu müqavilədə öz əksini tapacaqdır. Sonuncu dəyişiklik isə sosial xidmətin keyfiyyətinə və səmərəliliyinə nəzarətin həyata keçirilməsi qaydalarının müəyyən edilməsi ilə bağlı olacaqdır.

Bütövlükdə, bu dəyişikliklər hamısı humanist xarakterli dəyişikliklərdir, sosial xidmətə ehtiyacı olan, çətin həyat şəraitinə düşmüş şəxslərin vəziyyətinin yaxşılaşdırılması üçün onlara göstərilən sosial xidmətlərin həm həcmi genişlənəcək, həm də keyfiyyəti artırılacaqdır.

Qanun layihəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndəsinin iştirakı ilə komitədə ətraflı müzakirə olunmuş və bütövlükdə, komitənin rəyi ilə Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir.

Konseptual baxımdan birinci oxunuşda qanun layihəsini dəstəkləməyi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun.

Biz indi müzakirəyə keçirik. Yazılanlar var. Hicran Hüseynova. Buyurun, Hicran xanım.

**Hicran Hüseynova.** Xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri, mən də hamını bizim qarşıdan gələn qədim bayramlar münasibəti ilə təbrik edirəm.

Musa müəllim qanunla bağlı çox ətraflı məlumat verdi. İlk növbədə qeyd etmək istəyirəm ki, qanun layihəsinə, əlbəttə, münasibətim çox müsbətdir. Çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətlərin keyfiyyətinin

artırılması, əhatə dairəsinin genişləndirilməsi, bu xidmətlərə əlçatanlığının təmin edilməsi çox vacibdir. Ölkəmizdə yaşından, sosial statusundan, sağlamlıq vəziyyətindən asılı olmayaraq hər bir şəxs bu imkanlardan istifadə edir və əlbəttə, zamanla biz görürük ki, onlar üçün daha yaxşı şəraitin yaradılması məqsədi ilə hüquqi baza da təkmilləşdirilir.

Elə təqdim olunan qanun layihəsi də bu məqsədi daşıyır. Mən diqqətinizi altsheymer xəstəliyindən əziyyət çəkən insanlara cəlb etmək istəyirəm. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə hər il təxminən 10 milyon insan altsheymer xəstəliyindən əziyyət çəkir və xəstələrin sayının 2050-ci ildə 139 milyona çatacağı da göstərilir. Azərbaycanda belə diaqnozlu xəstələrin rəsmi statistikası olmasa da, bu qəbildən olan xəstələr var və onlara sosial xidmətlərin göstərilməsi də çox mühüm məsələdir. Mən inanıram ki, gələcəkdə bununla da bağlı sosial proqramlar nəzərdə tutulacaqdır. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Nigar Məmmədova. Buyurun.

**Nigar Məmmədova.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri! Mən də təbriklərə qoşuluram, xoş günlər arzulayıram. İcazənizlə, qanun layihəsi ilə bağlı öz mövqeyimi bildirmək istərdim.

İlk növbədə qeyd etmək istəyirəm ki, bütün inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrdə sosial xidmət sistemi sosial institut kimi müxtəlif islahat proseslərindən keçir. Əhalinin artan tələbatını nəzərə alaraq, sosial xidmətlərin inkişafına yanaşmalar da dəyişir. Nəticə etibarı ilə sosial xidmətlər mütləq dövrün çağırışlarına, inkişaf tendensiyalarına cavab verməlidir. Ölkəmizdə çətin həyat

şəraitində olan şəxslərin sosial rifah halının yaxşılaşdırılması istiqamətində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar həyata keçirilir, resurslar bu kateqoriyadan olan şəxslərin ehtiyaclarının ödənilməsinə yönəldilir. Burada inklüzivliyin təşviqi, sosial asılılığın qarşısının alınması, sosial xidmətlərin genişləndirilməsi başlıca prinsiplər sırasındadır.

Xüsusi ilə "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"nı qeyd etmək istərdim. Çünki məhz bu proqram ölkədə beynəlxalq sosial xidmət standartlarına uyğun sistemin formalaşmasına təkan verir və bu sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsini təmin edir.

Layihə ilə bağlı mən bir neçə vacib qeydimi diqqətinizə çatdırmaq istəyirəm ki, bu da məhz qanun layihəsində nəzərdə tutulan "sosial işçilərin və sosial xidmətçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq"dır. Bu həmin sahədə çalışan insanların özlərini daha faydalı hiss etmələrinə, eyni zamanda, bu sahədə çalışan kadrların hüquqlarının qorunmasına zəmin yaradacaq. Nəticə etibarı ilə bu sahəyə marağı artıraraq kadr axınını gücləndirəcək çox vacib bir dəyişiklikdir. Beynəlxalq təcrübə də göstərir ki, düzgün və peşəkar kadrlar sosial xidmətin keyfiyyətinə birbaşa təsir edir. Yəni sosial xidmət sahəsinin insan resursları potensialı müsbət sosial effekt əldə etməyə kömək edəcək xüsusiyyətlərə, bacarıq və biliklərə malik olmalıdır. Ümumiyyətlə, kadrların təkmilləşdirilməsi sosial institutun beynəlxalq standartlara cavab verməsinə zəmin yaradır. Eyni zamanda, bu, qarşılıqlı məsuliyyəti müəyyən etmək xarakteri daşıyır.

Digər bir vacib məsələni diqqətinizə çatdırıram. Sosial işçi tərəfindən şəxsə (ailəyə) sosial xidmət göstərilməsinə dair fərdi plan hazırlanmasıdır ki, bu da xidmətin keyfiyyətinin artırılmasına birbaşa təsir edən faktorlardan biridir. Belə ki, xidmət istifadəçisinin xüsusi ehtiyaclarını və üstünlüklərini əks etdirən fərdi plan ən yaxşı təcrübə kimi prioritet sayılır, vaxtaşırı yenilənərək gələcək qayğı və dəstək planlamasını təmin edir.

Xidmətin keyfiyyətinin artırılmasına yönələn dəyişikliklərdən biri də nəzarətin həyata keçirilməsi qaydasının müəyyən edilməsidir. Bu da vaxtaşırı monitorinqlərin aparılmasına, məsuliyyətin və cavabdehliyin daha da gücləndirilməsinə zəmin yaradacaq.

Layihədə diqqətçəkən məsələlərdən biri sosial-mədəni xidmətin əlavə olunması isə şəxslərin sosial-mədəni həyata uyğunlaşmasına, asudə vaxtın səmərəli təşkil olunmasına, bilavasitə sosiallaşmaya, cəmiyyətdə gedən proseslərlə bağlı maariflənməyə yönəlmişdir.

Bir sözlə, hesab edirəm ki, bütün dəyişikliklər müasir sosial xidmət sisteminin daha da təkmilləşməsinə zəmin yaradaraq çətin həyat şəraiti olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə təkan olacaq. Layihəni dəstəkləyirəm və həmkarlardan da xahiş edirəm, layihəyə səs versinlər.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Mediasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən Sizə söz verirəm. Əli Hüseynli. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. İlk növbədə onu bildirmək istəyirəm ki, bu qanun layihəsi 2019-cu ildə parlamentdə müzakirə və qəbul edilib. "Mediasiya haqqında" Qanunun yaranma səbəbi cənab Prezidentin məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi ilə bağlı məlum fərmanı idi. O fərmanda çox düzgün olaraq bir yanaşma var idi ki, mübahisələrin məhkəməyə qədər həlli mexanizmləri də yaradılsın. Məhz cənab Prezidentin müvafiq tövsiyəsi nəticəsində belə bir qanun ərsəyə gəldi, hazırlandı, işçi qrupu ilk mərhələdə Avropa İttifaqı ilə işlədi və parlamentdə geniş müzakirələr nəticəsində qəbul edildi.

Açığını deyim ki, o zaman müəyyən fərqli fikirlər də mövcud idi ki, mediasiya institutu Azərbaycanda işləyərmi, olacaqmı? Amma indi bir neçə faktla onu söyləmək istəyirəm ki, biz düzgün yolda olmuşuq, bu qanun qəbul olunub, mediasiya institutu yaradılıb və öz faydasını verməkdədir.

Hörmətli həmkarlar, bu 3 il ərzində ölkə üzrə mediator-

ların ümumi sayı artıq 381 nəfər təşkil edir. Onların 109-u qadın, qalanları kişidir. Bu o deməkdir ki, qadınlar da mediasiya fəaliyyətində çox aktivdirlər və insanların inamını qazanmışlar. Eyni zamanda, mediatorlar Bakıda 210 nəfər, 7 nəfər Naxçıvanda, qalan 164 nəfər isə regionlarda fiziki şəxs kimi fəaliyyət göstərir. Beləliklə, mediasiya fəaliyyəti Azərbaycanın bütün regionlarını əhatə edir.

44 mediasiya təşkilatı isə hüquqi şəxs kimi fəaliyyət göstərən mediatorları birləşdirir. Onların da 17-si Bakı şəhərində, 2 mediasiya təşkilatı Gəncədə, digərləri isə yenə Azərbaycanın regionlarında fəaliyyət göstərir. Vaxtı ilə bu qanun layihəsi qəbul olunarkən mediator üçün olan tələblərlə bağlı belə bir düşüncə var idi ki, o mütləqmi hüquqşünas olmalıdır? Amma qərar belə oldu ki, hüquqşünas olmaya da bilər və indi hüquqşünas olmayan şəxslər də mediator kimi fəaliyyət göstərir. Sadəcə, bir statistikanı da səsləndirmək istəyirəm ki, bu gün qeydiyyata alınmış mediatorların 42 faizi hüquqşünaslardır.

Hörmətli həmkarlar, 2024-cü ilin statistikasını da diqqətinizə çatdırmaq istəyirəm. 7500-dən artıq barışıq sazişi əldə olunmuşdur ki, bu da, bütövlükdə, 47 faiz uğurlu nəticə deməkdir. Beləliklə, söyləmək olar ki, mediasiya institutu uğurla fəaliyyət göstərir. Əsas istiqamətlər məlumdur, qanunda da bu var. Bu, ailə, əmək, kommersiya ilə bağlı olan mübahisələrdir.

İndi isə qanun layihəsi ilə bağlı qısaca məlumat vermək istəyirəm ki, qanun layihəsinin meydana gəlmə səbəbi də yeni yaradılmış mediasiya institutunun bu 3 ildə fəaliyyətinin analizi və bir sıra boşluqların doldurulması ilə bağlıdır. Belə ki, aydındır, mediator məhkəməyə qədər olan bir strukturdur, qurumdur, barışıq sazişini əldə etmək

istəyir. Onların da nüfuzu ciddi bir faktordur. Ona görə ilk növbədə qanun layihəsi mediatorların etik və peşəkar standartlarının daha da gücləndirilməsinə yönəlib və qanun layihəsinin 10-cu maddəsi bu sıralamanı bir qədər də genişləndirir. Daha dəqiqini söyləsəm, kimlər mediator ola bilməzlər? Bunlar o şəxslərdir ki, hakim, notarius, vəkil kimi fəaliyyət göstərərkən ciddi pozuntulara yol veriblər və onların səlahiyyətlərinə xitam verilib, məhz xitamvermə ilə nəticələnib. Elə şəxslərin sonradan mediator kimi fəaliyyət göstərməsi artıq məqsədəmüvafiq hesab olunmur.

İkinci istiqamət dəyişikliklər fiziki şəxs kimi fəaliyyət göstərən mediatorların da ofis tələbləri ilə bağlıdır. Yəni təklif olunur ki, mediator ən azı iki otaqdan ibarət olan bir ofisə yerləşməlidir və işə baxmalıdır. Çünki bu, faktiki olaraq mübahisənin həlli ilə bağlıdır. Onun texniki təminatı da vacibdir. Nəhayət, üçüncü istiqamət. Təklif olunur ki, təlimi uğurla bitirmiş mediatorlar üçün sertifikat müddəti 5 il olsun və o bu dövrdə uğurla fəaliyyət göstərsin.

Digər təkliflər isə texniki xarakterli təkliflərdir. Bütövlükdə, hesab edirəm ki, cənab Prezident tərəfindən təqdim olunmuş qanun layihəsi mediasiya institutunun daha da güclənməsinə, daha da nüfuzlu olmasına xidmət edir. Həmkarlarımı qanun layihəsinə müsbət səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Həmişə olduğu kimi, ətraflı məlumatınıza görə çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, indi isə müzakirəyə keçirik. 4 nəfər yazılıb. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də birinci oxunuşun tələblərinə

uyğun olaraq, fikirlərimi çox qısa təqdim etmək istərdim. Hörmətli Əli müəllimin qeyd etdiyi kimi, "Mediasiya haqqında" Qanun qəbul edildikdən və eyni zamanda, Mediasiya Şurası formalaşdıqdan sonra həmin qurumun fəaliyyəti ilə bağlı müəyyən tərəddüdlər var idi. Amma ötən müddətdə Mediasiya Şurasının fəaliyyəti bir daha təsdiq etdi ki, belə bir qurumun institusional olaraq yaranması məhz günün tələbi idi və praktiki olaraq Mediasiya Şurası institusional bir qurum olaraq bu istiqamətdə fəaliyyətini gücləndirdi və islahatların dərinləşməsinə töhfə verdi.

Statistika göstərir ki, həm mediatorların, həm də mediasiya institutuna edilən müraciətlərin sayında artımlar var. Təbii ki, bu da mediasiya prosesinə olan inamın artmasına və Mediasiya Şurası, mediasiya prosesi vasitəsi ilə bir sıra mübahisələrin həllinin reallaşmasına imkan yaradır. O baxımdan artıq mediasiya institutu institusional bir qurum olaraq özünü təsdiq edib. Bu baxımdan, təbii ki, qanunvericiliyə edilən dəyişikliklər, bütövlükdə, bu sahədə islahatların dərinləşməsinə xidmət edəcək.

Eyni zamanda, birinci oxunuşun tələblərinə uyğun olaraq, nəzərə alsaq ki, hazırda Mediasiya Şurası tərəfindən ailə mübahisələrinə, bir sıra kommersiya, əmək və eləcə də mülki mübahisələrə baxılır, qonşu, qardaş Türkiyə də daxil olmaqla, bir sıra, istər region, istərsə də inkişaf etmiş ölkələrdə məcburi olaraq ilkin mediasiya sessiyası tələb olunan işlərin siyahısı kifayət qədər genişdir. Artıq bizdə də qanunvericilik təkmilləşir, Mediasiya Şurası institut olaraq fəaliyyətini genişləndirir. O baxımdan daha məqsədəuyğun olardı ki, qardaş Türkiyədə olduğu kimi, ilkin olaraq mediasiya sessiyası tələb edilən məcburi

işlərin siyahısı genişləndirilsin. Bu, bir tərəfdən, mübahisələrin məhz bu mərhələdə daha qısa zamanda və məhkəməyə təqdim olunmadan həll edilməsinə imkan yarada bilər. Digər tərəfdən, təbii ki, Mediasiya Şurasının fəaliyyətinin daha da genişləndirilməsinə və yalnız və ya daha çox ailə mübahisələrinə deyil, kommersiya, əmək və mülki mübahisələrin həllinə də dəstək olmasına imkan yarada bilər. Xüsusən nəzərə alsaq ki, inkişaf etmiş ölkələrdə kommersiya mübahisələrinin həllində mediasiya institutları kifayət qədər aktivdir.

Biz bir müddət öncə ombudsmanın məruzəsinin müzakirəsini həyata keçirdik. Orada da qeyd olunduğu kimi, əmək mübahisələrinin həll edilməsində yeni yanaşmaların tətbiqi olduqca vacibdir. Xüsusən əmək mübahisələrinin məhkəməyə qədər və məcburi olaraq ilkin mediasiya sessiyası vasitəsi ilə həll edilməsi və bu istiqamətdə islahatların dərinləşməsi məqsədəuyğun olardı. O baxımdan, təbii, qanun layihəsi və bu gün təqdim olunan statistika da göstərir ki, mediasiya sahəsində qarşıya qoyulan hədəflərə nail olmaq mümkün olub və təbii, yeni dövrün tələblərinə və yeni hədəflərinə uyğun olaraq, mediasiya fəaliyyətinin genişləndirilməsi, bütövlükdə, bu sahədə islahatların daha da dərinləşməsinə xidmət edəcək. Bu kontekstdən, təbii ki, mən layihəni dəstəkləyirəm və hörmətli həmkarlarımızdan layihəyə dəstək olmalarını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Fazil Mustafa. Fazil müəllim, buyurun.

**Fazil Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hesab edirəm ki, bugünkü qanun layihəsi, əslində, doğru strategiyanın seçildiyini göstərir. Biz 3 il öncə mediasiya institutunun yaradılması barədə qərar qəbul

edərkən bu bir təcrübə idi və bu təcrübənin necə həyata keçirilməsi praktikada hansı məsələlərin daha aktuallaşacağını gözləməyə bizə müəyyən dərəcədə imkan yaradırdı. Bu fəaliyyət nəticəsində anlaşıldı ki, bu institut özünü doğrultdu və qısa müddətdə Azərbaycan cəmiyyətində həm məhkəmələrin yükünün azalmasında, həm də vətəndaşlar arasında mediasiya vasitəsi ilə problemlərin həllinə bir təşviq yarada bildi.

Burada çox hörmətli Əli müəllim qeyd etdi ki, 47 faizə yaxın nisbətdə mübahisələrin həlli baş tutubdur. Əslində, bu 47 faiz daha artıq ola bilərdi. Bir şeyi etiraf edək ki, cəmiyyətimizdə mediasiya mədəniyyəti çox aşağı olduğuna görə insanlar mübahisəni barışıq formasında həll etməyə çox vaxt meylli olmurlar. Ona görə də bu sistemin, bu institutun səmərəliliyinin təbliğ olunması da, maarifçilik işinin aparılması da çox əhəmiyyətlidir və bu sahədə də işlər daha çox artırılsa, məncə, mediasiya vasitəsi ilə problemlərin həllinə meyllənmə də daha çoxalacaqdır.

Müzakirə olunan qanunda xeyli müsbət dəyişikliklər var və bunlar birinci növbədə təsadüfi adamların mediator olma imkanlarını azaldır, məhdudlaşdırır. Burada hansı isə bir şəkildə öz sahəsində reputasiyası ortadan qalxmış şəxslərin bu sahəyə yönəlməsinə imkan tanımır. Bu da etimadın artması üçün vacibdir. Çünki bir şəxs tanıyır ki, bu hansı isə bir nöqsana görə notariat sistemindən, yaxud dövlət qulluğundan, hakimlikdən uzaqlaşdırılıbdır, birdənbirə gəlib mediator olur. Onun həll etdiyi məsələlərə də güvən azala bilər. Bu baxımdan bu praktika olduqca yaxşı nəticələr vermədiyinə görə, bu dəyişikliklər zəruridir.

Digər tərəfdən, mediasiya xidmətinin keyfiyyətinin artırılması üçün hətta minimum iki otağın olmasının, – bu,

artıq da ola bilər, – nəzərdə tutulması da müsbət addımdır. Sertifikasiyanın 5 il olması müəyyən dərəcədə mediatorların daha uzun müddət fəaliyyət göstərməsinə də şərait yaratmış olacaqdır.

Digər tərəfdən, bu kimi məsələlərdə birinci növbədə vətəndaşların ilkin mərhələ kimi öz aralarında, bir-birinə müraciət edərək mediasiya ilə bağlı prosesi uzatması da ortadan qaldırılır. Yəni artıq vətəndaş kimə isə müraciət edirdi ki, gəl, mediasiyada bu məsələni çözək. Amma artıq buna ehtiyac qalmır. Çünki bu elə ən azı, bir ay, iki ay uzanan məsələ olur. Digər tərəf cavab vermir, ünvanı tapılmır və başqa faktorlar üzə çıxır. Artıq vətəndaş birbaşa mediasiya qurumuna müraciət edən kimi, həmin qurum bu funksiyanı öz üzərinə götürərək o vətəndaşa müraciət edir və mərhələ azaldığına görə bu prosesin effektivliyi də artmış olur. Bu baxımdan bürokratik əngəllərin ortadan qalxmasına da kömək edən bir variant olur. Digər tərəfdən, bu, həm də kağız-kuğuz işlərinin azalmasına, müəyyən mənada vaxt itkisinə də hər halda öz təsirini göstərmiş olur.

Burada bir faktı da göstərməliyik ki, Mediasiya Şurası dövlət büdcəsindən maliyyələşmir. Məcburi üzvlük haqları vasitəsi ilə maliyyələşir. Məncə, ancaq məhdud sayda işlərdə az imkanlı ailələrə və başqa kateqoriyadan insanlara dövlət büdcəsindən vəsait ayrılır. Məncə, burada bir qədər dövlət büdcəsinin də bu yeni yaranmış instituta müəyyən dərəcədə kömək etməsi imkanlarını da düşünmək lazımdır. Çünki birbaşa, tam şəkildə öz öhdəsinə buraxanda da məhkəmənin yükünün azalması üçün vacib olan bu qurum az təminatla bir sıra məsələləri həll etməkdə çətinlik çəkir və bu, qərarların keyfiyyətinə də öz

təsirini göstərir. Çünki burada elektronlaşma ilə bağlı məsələlər var. Böyük maddi imkanlar olmadıqda bu, xeyli çətinliklər yaradır.

Digər tərəfdən, mediasiya sistemi bizim həm də hüquq sistemimizin, cəmiyyətin özünün sisteminin bir güzgüsü kimi anlaşılmalıdır. Diqqət edirsinizsə, burada xüsusi ilə də ailə münasibətlərində çox ciddi məsələlər ortaya çıxır. Bu, nikah müqavilələri ilə bağlı məsələdir. Biz çox vaxt burada vətəndaş məsuliyyətsizliyi məsələsini arxa planda tutduğumuza görə bir çox məsələlər mediasiyada və məhkəmədə çətinlik yaradır. Bildiyiniz kimi, bizdə nikah müqavilələri könüllüdür. Ən çox mediasiyada da, – praktikada bizə də müraciət edirlər, – mübahisələr nəyin üzərində olur? Evlənmiş, ailə qurmuş şəxslərin bir-birinə bizim müəyyən dərəcədə nöqsanlı adətlərimizin təsiri olaraq, – bəzən bunu kimlər isə tərifləyir, toy, yas adətlərimizdə olan naqisliklər kimi bu sahədə də böyük naqisliklər var, – insanlar bir-birinə üzük aparır, qazan aparır, aşsüzən aparır, nə aparırsa, heç birini sənədləşdirmirlər. Sənədləşdirmədiyinə görə də boşanma olan kimi dərhal bunun alınıb qaytarılmasını mediasiyanın, məhkəmənin üzərinə yıxırlar və bu mübahisələr gündəmi zəbt edir. Hətta uşağın taleyi bir tərəfdə qalır, amma bu üzüyün qaşını dəyişmisiniz, üzüyün qaşını olduğu kimi qaytarmalısınız, deyə tələblər məhkəmənin əsas mövzusuna çevrilir. Ona görə də mən nəyi təklif etmək istəyirəm. Biz bu mediasiya institutunu dəstəkləmək, bu mübahisələrin həllini istəyiriksə, nikah müqaviləsində məcburi elementləri bura tətbiq etməliyik. Yəni bu nikah müqaviləsinin imzalanmasını təmin edən qurumlarda onsuz da formal müqavilə sənədi var. O sənədi könüllü şəkildə imzala-

yırlar. Amma konkret olaraq kim kimə nə verirsə və sabah hansı isə bir boşanma ehtimalı olanda, o məsələ gündəmə gələndə ki, konkret nə verib və alıbsa, məhkəmə birbaşa onu icraya yönəldir. Artıq onu mübahisələndirmir. Mübahisələndirmə olmayanda bu proses uzanmır, məhkəmələrin yükü azalır. Avropa ölkələrinin də təcrübəsində diqqət etsəniz, ailə və başqa zəmində olan mübahisələrdə məhkəmələr bu qədər uzun çəkmir. Səbəbi nədir? Çünki Avropada bizim bu "gözəl" adətlərin bir qismi yoxdur. Normal, hansı isə bir müqavilə bağlayanda hər şeyi sənədləşmə əsasında edirlər. Necə ki, biz etdik. Məsələn, ailə qurmazdan öncə tibbi müayinədən keçmək, əvvəl bunu mentalitetə uyğun saymırdılar. Amma zaman göstərdi ki, boşanmaların əsas səbəblərindən də biri odur. Nə olsun? Əvvəlcədən bilməyi yaxşıdır ki, kimin hansı xəstəliyi var, bəlkə qərara təsir edəcək. İnsan öz taleyini qurursa, mütləq əvvəlcədən informasiyasının olması, məlumatlanması vacibdir. Ona görə də bu məsələ, məncə, zəruri məsələdir. Biz mediasiya institutuna dəstək vermək istəyiriksə, nikah müqaviləsi ilə bağlı məsələnin məcburi xarakter daşıyan elementlərinin burada əks olunmasını təmin etməliyik. Ondan sonra artıq heç kəs birinə hansı isə bir şəkildə apardığı əşyaların geri qaytarılması tələbi ilə bu qədər uzun-uzadı mübahisələrə girməyəcək. Həm də bu məsələlər azərbaycansayağı bir çox qisas xarakteri daşıyan amilə çevrilir. Bir çox hallarda heç o əşyalara ehtiyac olmasa belə, prinsipə onun alınması üçün ailə dəyərləri üzərində bir manipulyasiya etməsinə səbəb olur. Bu proses insanlar arasında barışma ziddiyyətləri yaradır. Bu baxımdan, məncə, qanun layihəsi kifayət qədər faydalı və bu sahənin inkişafına kömək edən qanun layihəsidir. Mən

dəstəkləyirəm, eyni zamanda, müvafiq qurumlar tərəfindən səsləndirdiyim məsələnin də gələcəkdə diqqətə alınmasını xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Fazil müəllim.

Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova**. Xanım sədr, bu qanunda çox vacib məsələlərə toxunulur. Mən Əli müəllimə çox minnətdaram. Fazil müəllim də çox məsələlərə toxundu. Burada təqdim olunan qanun layihəsi çox mühüm bir sənəddir. Xüsusi ilə də ailə və əmək mübahisələri üzrə mediasiya sisteminin davamlı inkişafına çox böyük ehtiyac var. Əfsuslar olsun ki, ölkədə boşanmaların sayında biz artım müşahidə edirik. Mediasiya tərəflərə boşanmanın detalları üzərində, yəni uşaq hüquqları, aliment və digər məsuliyyətlər kimi məsələlərdə razılaşma əldə etmək üçün müzakirə şəraiti yaradır. Mediasiyanın boşanmalara təsiri bir neçə əsas istiqamətdə özünü göstərir. Məsələn, sülh yolu ilə boşanma və stressin azalması. Bəzən də bu müzakirələrin sonu barışıqla bitir, tərəflər boşanmaqdan imtina edirlər. Ona görə də bu müsbət tendensiyanın davam etməsi məqsədi ilə mediatorların, mediasiya təşkilatlarının fəaliyyətinin daha da gücləndirilməsi məqsədəmüvafiqdir.

Təqdim olunan qanun layihəsində olan dəyişikliklər, əlbəttə ki, buna çox xidmət edəcək. Fazil müəllim də toxundu, mən də belə düşünürəm, – ola bilsin, Ədliyyə Nazirliyinə həvalə olunsun, – hansı isə formada dövlət tərəfindən, əlbəttə ki, vəsait ayrılsa, çox yaxşı olardı. Qanun layihəsinə münasibətim çox müsbətdir, səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun.

Gülşən xanım, buyurun. Gülşən Paşayeva.

**Gülşən Paşayeva**. Xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Bu gün müzakirə etdiyimiz "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin bir neçə məsələsi üzrə müzakirəsini məndən əvvəl çıxış edən həmkarlarım kimi, mən də çox yüksək qiymətləndirirəm. İlk olaraq Əli müəllim tərəfindən məhz mediasiya ilə bağlı bu ölkədə həyata keçirilən fəaliyyət və bu mənada yalnız qanunvericilik baxımından deyil, eyni zamanda, icra baxımından da bir sıra təşkilatlar, mediator tərəfindən bu istiqamətdə aparılan işin çox ətraflı şəkildə qeyd edilməsi də olduqca aktual görünür. Çünki ən azı, biz müəyyən mənada onu qiymətləndirə də bilərik. Çünki mən belə başa düşdüm, qanun ilk dəfə 2021-ci ildə, üzr istəyirəm, daha doğrusu, 2019-cu ildə cənab Prezidentin imzası ilə qüvvəyə minib. Sonra, 2021-ci ildə bəzi dəyişikliklər edilib. Yəni qanunun 3.2-ci, 28-ci və 29-cu maddələrində elə bu dəyişikliklər edildikdən sonra 2021-ci ildə qüvvəyə minib.

Əlbəttə, mediasiya deyilən bir məfhum olduqca vacib, mənə elə gəlir, sovet məkanına Qərbdən gələn bir anlayışdır. Bu anlayış, əsasən, belə götürdükdə, alternativ, mübahisəli məsələlərin həll edilməsi üçün orada geniş şəkildə istifadə edilən üsullardan biridir. Mediasiya, ümumiyyətlə, könüllülük prinsipi əsasında həyata keçirilir və tərəflər mediatoru seçməkdə tam mənada sərbəstdirlər. Yəni bu mənada bu institutun Azərbaycanda fəaliyyəti, bir tərəfdən, doğrudan da, bu proseslərdə daha geniş baxımdan götürürüksə, ümumiyyətlə, dünyada tətbiq edilən metodların Azərbaycanda da yavaş-yavaş tətbiq edilməsinə

gətirib çıxarır. Bu, çox müsbət və mənə elə gəlir, sevindirici bir haldır və praktika da göstərir ki, doğrudan da, əgər bizdə Əli müəllimin dediyi kimi, 2024-cü ildə 7 min 500 sayda barışıq sazişi əldə edilibsə, onda belə çıxır, həm də əhali artıq bu instituta inanır və mən bayaq qeyd etdiyim kimi, könüllü şəkildə məhz bu vasitədən istifadə edir.

Birinci oxunuşun qaydalarına uyğun olaraq, mən detallara getmək istəməzdim. Ancaq bir sıra məsələləri mən yəqin ki, ikinci oxunuşda qeyd edəcəyəm. Mənə elə gəlir ki, qanun layihəsi olduqca vacibdir, əhəmiyyətlidir və mən onu dəstəkləyəcəyəm. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Gülşən xanım.

İndi isə Hikmət Məmmədov. Hikmət müəllim, buyurun.

**Hikmət Məmmədov**. Hörmətli xanım sədr, söz verdiyiniz üçün təşəkkür edirəm. Çox hörmətli Əli müəllim Hüseynliyə təşəkkür edirəm, "Mediasiya haqqında" Qanunla bağlı çox ətraflı məlumat verdi. Bu qanunun nə qədər səmərəli, nə qədər funksional olması haqqında bizi məlumatlandırdı. Düşünürəm ki, Azərbaycan cəmiyyətində bunun qarşılığı var. Yəni milli adət-ənənələrimiz də həmişə olub ki, nüfuzlu bir şəxsin kimləri isə barışdırması. Bu, milli adət-ənənələrimizdən gələn bir məsələdir. Çox yaxşı ki, hazırkı mərhələdə biz bunu hüquqi müstəviyə transfer edirik. Amma, əlbəttə, mən düşünürəm ki, bəzi məsələlər var, onları da nəzərə alsaq, bu qanunun səmərəliliyini daha da artıra bilərik. Bu nədən ibarətdir?

Mən düşünürəm ki, "Mediasiya haqqında" Qanunda mediatorların ixtisaslaşması daha yaxşı olardı. Məsələn, bir filoloq iqtisadi mübahisələri necə həll edəcəkdir? Doğrudurmu? Yəni bu mediatorun ixtisasına baxmaq lazımdır. Əgər bu, mediatordursa, iqtisadi biznes əlaqələri

ilə bağlı mediasiya prosesi aparacaqsa, iqtisadiyyat haqqında bunun təsəvvürləri, şübhəsiz ki, məhduddur. Ona görə sertifikatlaşdırılanda, məncə, iqtisadi məsələlər, iqtisadi proseslər üzrə mediator ayrı olsun, ailə məsələləri, ailə münasibətləri üzrə mediator ayrı olsun. Məsələn, burada çox yaxşı ki, hazırda məhz kimlər mediator ola bilməz sualına cavablar tapırıq. Məsələn, ailəsindən boşanmış bir şəxs, düşünün ki, əgər o məhdudiyyətlər yoxdursa, gedib bir şəkildə sertifikat alıbdır və ailə proseslərində mediator kimi çıxış edir. Yəni düzdür, mən başa düşürəm, bu da hüquq hadisəsidir. Amma hər şeyin də bir mənəviyyatı var. Belə olan halda burada ikinci dəfə yenidən bu ixtisaslaşma ortaya çıxır ki, məhdudiyyətlər tətbiq olunsun. Ailəsindən boşanmış, yaxud bir neçə dəfə boşanmış kim isə gəlib sertifikat alıb ailə məsələləri ilə bağlı mediasiyanı aparmasın.

Ayrı bir məsələ ödənişlərlə bağlıdır. Bütün hallarda, mənə elə gəlir ki, mütləq məhkəməyə qədərki proseslərdə mediasiyanın tətbiqi o qədər də doğru olmaz. Yəni vətəndaş əgər istəmirsə, mediasiyaya müraciət etmədən birbaşa məhkəməyə müraciət etsin, ona bu hüququ vermək lazımdır. Doğrudur, əslində, qanunda bu var. Amma bəzi məsələlər var, orada mütləq vətəndaş yönləndirilir ki, ilk növbədə mediasiya prosesi məcburidir, mediasiya prosesini keçməlisiniz, sonra məhkəmələrə üz tuta bilərsiniz. Mənə elə gəlir ki, bax, bu təkliflər nəzərə alınarsa, daha səmərəli, daha funksional bir qanun hazırlamış ola bilərik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz “Baytarlıq haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri Tahir müəllimə söz verirəm. Buyurun, Tahir müəllim.

**Tahir Rzayev**. Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, deputat həmkarlar. Təqdim olunan qanun layihəsi qanunvericiliyin təkmilləşdirilməsi və qeydiyyat üçün ödənilən xərclərin ləğv edilməsi məqsədi ilə hazırlanmışdır. Belə ki, mövcud qanunvericiliyə görə heyvanlar üçün bioloji preparatlar istehsal etmək üçün sahibkar həm lisenziya, həm də qeydiyyat prosedurundan keçməli, dövlət rüsumu ödəməli idi. “Baytarlıq haqqında” Qanunda edilmiş bu dəyişikliyə görə lisenziya verən orqan – İqtisadiyyat Nazirliyi lisenziyalar haqqında lazımi məlumatları 3 gün müddətində müvafiq nəzarət orqanına, Qida Təhlükəsizliyi Agentliyinə göndərir. Bioloji preparatlar obyektlərinin qeydiyyatı Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həyata keçirilir və qeydiyyatla bağlı yaranan xərclər ləğv edilir. Bu dəyişiklik sahibkarı əlavə xərclərdən azad edir və sahibkarlığa dəstəkdir. Dəstəkləməyinizi

xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim.

Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 4 məsələ qalır və bu məsələlərin hamısı ikinci oxunuşda olan qanun layihələridir.

İndi 11-ci məsələyə keçirik və bu məsələ "Nəqliyyat haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bildiyiniz kimi, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır və mən komitənin sədri Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov**. Çox sağ olun, hörmətli xanım sədr. "Nəqliyyat haqqında" Qanunda dəyişikliklərlə bağlı birinci oxunuş zamanı ətraflı məlumat verilmişdir. Həmkarlarımız tərəfindən qanun layihəsinə dair hər hansı təklif, qeyd irəli sürülməmişdir. Xahiş edirəm, ikinci oxunuşda da layihəni səsə qoyasınız. Təşəkkür edirəm.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun.

Hörmətli həmkarlar, bu, ikinci oxunuşdur, bilirsiniz ki, biz qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Xahiş edirəm, indi bu qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxışa heç kim yazılmayıb. Mən indi maddələr üzrə səsverməyə keçəcəyəm. Bu layihədə 1 maddə var. Həmin maddəyə səs verək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə qanun layihəsinə bütövlükdə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 101 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

Bizim növbəti məsələmiz "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bilirsiniz ki, qanun layihəsinə Elm və təhsil komitəsində baxılmışdır. İndi isə mən komitənin sədri hörmətli Anar İsgəndərova söz verirəm. Anar müəllim, buyurun.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, mən də deputat həmkarlarımın təbriklərinə qoşulur, qarşıdan gələn bayramlar münasibəti ilə sizin hər birinizi təbrik edirəm.

Hörmətli xanım sədr, birinci oxunuş zamanı "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında ətraflı məlumat vermişdim. Qanun layihəsi birinci oxunuşda deputat həmkarlar tərəfindən təqdir olunub və heç bir təklif yoxdur. Qanun layihəsinin səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim.

Hörmətli həmkarlar, bu qanun layihəsini biz əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz.

**Səsvermənin nəticələri** (saat 12.43 dəq.)

| | |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Maddələr üzrə səsvermə proseduruna keçəcəyik. Layihədə 3 maddə var. 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.

İndi isə 3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

Növbəti məsələmiz "Feldyeger rabitəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitə sədrinin müavini hörmətli Elşən Musayevə söz verirəm. Elşən müəllim, buyurun.

**Elşən Musayev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini.*

Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən də təbriklərə qoşuluram və hər kəsə uğurlar arzulayıram.

Birinci oxunuşda layihə barədə ətraflı məlumat vermişdim. Komitəyə heç bir irad, təklif daxil olmayıb. Ona görə də ikinci oxunuşda mətnin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Elşən müəllim.

Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Qanun layihəsində 1 maddə var. Xahiş edirəm, həmin maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyu-

ram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

Bizim 14-cü məsələmiz "Konstitusiya Məhkəməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**Nizami Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Birinci oxunuş zamanı qanun layihəsi barədə ətraflı məlumat verilmişdir. Hazırda müzakirəyə təqdim edilən mətndə hər hansı bir dəyişiklik baş verməmişdir və sual doğuran məsələ olmamışdır. İkinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim.

Hörmətli həmkarlar, mən qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
| Lehinə | 102 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi.

İndi isə müzakirəyə keçirik. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Qüdrət Həsənquliyev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar, media nümayəndələri. Mən birinci oxunuşda müzakirə olunan məsələ ilə bağlı çıxış etmişdim və qanun layihəsini dəstəkləmişdim. İndi ikinci oxunuşda bir məsələyə diqqətinizi cəlb etmək istəyirəm.

Hazırda bizim Konstitusiya Məhkəməsinin 9 üzvü var, cəmi üçü hakim işləmiş şəxslərdir. Azərbaycan Respublikası Konstitusiyasına görə, məhkəmə hakimiyyətinin başında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi gəlir və 125-ci maddənin II hissəsində qeyd olunur ki, məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, apellyasiya məhkəmələri, ümumi məhkəmələr və digər ixtisaslaşdırılmış məhkəmələr həyata keçirir.

Eyni zamanda, Konstitusiyanın 130-cu maddəsinə görə, hər bir Azərbaycan Respublikası vətəndaşı, yəni hər kəs onun hüquq və azadlıqlarını pozan məhkəmə aktlarından Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə şikayət verə bilər. Bu o deməkdir ki, yəni Konstitusiya Məhkəməsi bizim hətta Ali Məhkəmənin də aktlarını ləğv edə bilər. Bu baxımdan bizdə indi Konstitusiya Məhkəməsinin hakimləri 5 il hakim işləmiş, üzr istəyirəm,

5 il hüquqşünas ixtisası üzrə işləyən şəxslər sırasından seçilirlər, təyin olunurlar. Amma baxın, Ali Məhkəmənin üzvləri ilə bağlı bu tələb ondan ibarətdir ki, – xüsusi ilə də "Məhkəmələr və hakimlər haqqında" Qanunda hakim vəzifəsinə təyin edilmənin xüsusi qaydaları müəyyənləşib, – orada qeyd olunur ki, "hüquq sahəsində nüfuza, hüquqşünas ixtisası üzrə 20 illik iş təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik olan şəxslər bu Qanunun 93-3-cü maddəsində nəzərdə tutulmuş prosedurlardan kənar Məhkəmə-Hüquq Şurasının təklifinə əsasən qanunvericiliklə müəyyən edilmiş qaydada yüksək hakim vəzifələrinə təyin edilə bilərlər".

Hörmətli sədr, əvvəla, qeyd edim ki, bizim qanunvericilikdə, ümumiyyətlə, "yüksək hakim vəzifəsi" deyilən bir şey yoxdur. Yəni bizdə var birinci instansiya məhkəməsinin hakimləri, apellyasiya məhkəməsinin hakimləri və Ali Məhkəmənin hakimləri. Yəni qeyd etdiyim kimi, yuxarı instansiya məhkəmələrinin hakimləri, bunu da gərək biz qanunvericilik qaydasında mütləq nəzərə alaq. Amma gördüyünüz kimi, Ali Məhkəmənin xüsusi qaydada təyin olunan üzvlərinə aid tələblər Konstitusiya Məhkəməsinin üzvlərinin təyin olunması ilə bağlı tələblərdən nə qədər sərtdir.

Ümumiyyətlə, bir daha hörmətli həmkarlarımın diqqətinə çatdırmaq istəyirəm ki, bizdə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa görə, istisnalara yol verilmir. Yəni ümumi qaydalardan kənar istisnalar, hesab olunur ki, diskresion səlahiyyətlərin verilməsidir. Bu, vətəndaşların qanun qarşısında bərabərliyinin pozulmasına, o cümlədən Konstitusiyanın tələbi var ki, qanunlar bərabər mənafelərə bərabər münasibət ifadə etməlidir,

yəni bu tələbin də pozulmasına yol açmış olur. Həm də sui-istifadə hallarına yol açır. Yəni bu, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbləridir.

Ona görə mən nəyi təklif edirəm? İstərdim ki, hörmətli Əli müəllim bunu qanunvericilik təşəbbüsü subyekti ilə müzakirə etsin. Hesab edirəm, belə qayda müəyyən olunmalıdır ki, birinci instansiya məhkəməsində 5 il işləmiş hakim apellyasiya məhkəməsinin üzvü təyin oluna bilər, 5 il apellyasiya məhkəməsinin üzvü işləyən hakim Ali Məhkəmənin üzvü təyin oluna bilər və ən azı 5 il Ali Məhkəmənin üzvü təyin olunmuş şəxs Konstitusiya Məhkəməsinin üzvü təyin oluna bilər. Yoxsa, indiki halda, qeyd etdiyim kimi, baxın, Konstitusiya Məhkəməsinin 9 üzvündən cəmi üçü hakim işləmiş şəxsdir. Amma Konstitusiya Məhkəməsi, dediyim kimi, Ali Məhkəmənin qərarlarını ləğv etmək səlahiyyətinə malikdir. Ona görə də bu, daha doğru olar və həm də biz bununla o istisnaları da aradan qaldırmış olarıq.

Yox, əgər yenə də biz istisnalara yol verəcəyiksə, o halda, heç olmasa, Ali Məhkəmə ilə Konstitusiya Məhkəməsinə aid tələbləri eyniləşdirmək lazımdır. Burada da, hesab edirəm ki, 10 il müddət nəzərdə tutulsa, yəni hüquqşünas ixtisası üzrə 10 il işləmiş şəxslərin təyin olunması daha doğru olar. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Erkin Qədirli. Buyurun.

**Erkin Qədirli.** Çox sağ olun, hörmətli xanım sədr. Fürsətdən istifadə edərək mən də ilaxır çərşənbə, torpaq çərşənbəsi münasibəti ilə Sizi və deputat həmkarların hamısını təbrik edirəm və eləcə də qarşıdan gələn Novruz bayramınız mübarək olsun.

Doğrusu, mən Konstitusiya Məhkəməsinin mahiyyəti, təbiəti ilə bağlı qısaca söz istədim. Konstitusiya Məhkəməsi olan ölkələrin təcrübəsi və elə nəzəriyyəsi də göstərir ki, Konstitusiya Məhkəməsi adi məhkəmələrin yuxarı instansiyası deyil. O, ümumiyyətcə, “Political jurisprudence” deyilən bir ifadə, termin var, siyasi yurisprudensiyası, onunla bağlıdır. Bu, mahiyyətcə daha çox siyasətlə hüquq arasındadır, çünki Konstitusiya mübahisələrinin çoxu belədir, xeyli dərəcədə abstrakt, nəzəri bilik tələb edir və ona görə də bir çox ölkələrdə Konstitusiya Məhkəməsinin hakimləri elə akademik çevrədən təyin olunurlar. Onların bir çoxunun heç daha öncədən, ümumiyyətlə, məhkəmə təcrübəsi olmur.

Hələ 1920-ci ildə Hans Kelzen Konstitusiya Məhkəməsi ideyasını irəli sürdü, – tarixdə ilk Konstitusiya Məhkəməsi Avstriyada yaradılmışdır, – onun qanununu da Hans Kelzen özü yazmışdı, normativ hüquq nəzəriyyəsinin banisi. Ona görə onu yazdı ki, onun qənaətinə görə və çox doğru da qənaət idi ki, məsələn, anqlo-sakson hüquq sistemində Konstitusiya Məhkəməsi yoxdur. ABŞ-da Ali Məhkəmə 1803-cü ildə Merberi Medisona qarşı özü o səlahiyyəti öz üzərinə götürüb. Halbuki Amerika Konstitusiyası heç Ali Məhkəməyə bu səlahiyyəti verməmişdi. Hans Kelzen düşündü ki, Avropa qitəsində, bütün Avropa ölkələrində ali məhkəmələr ABŞ Ali Məhkəməsi qədər yetərincə güclü deyildir. Onun siyasət və hüquq arasında var-gəl etmək ənənəsi də yoxdur. Çünki Amerika Birləşmiş Ştatlarında Ali Məhkəmə mahiyyətcə siyasi işlərə də baxa bilir. Avropa qitəsi ölkələrində ali məhkəmələrin, ümumiyyətcə, ona heç səlahiyyəti yetmir, qanunla da qadağandır. Ona görə də o

düşündü, – Avropa ölkələrində tarixən konkret olaraq, birinci, Avstriyada yaradılmışdı, – orada Ali Məhkəmənin nə ənənəsi, nə də elə bir institusional gücü var ki, Konstitusiya Məhkəməsində siyasi mübahisələrdən doğan şərhlər versin. Ona görə elə o ideya da bundan ibarət idi ki, Konstitusiya məhkəmələri faktları araşdırmırlar, sübutları dəyərləndirmirlər. Onlar ali məhkəmələrin Konstitusiyaya zidd olan qərarları olacaqsa, bundan şikayət olacaqsa, o işlərə də baxa bilərlər. Amma normalda Konstitusiya məhkəmələrinin hakimlərinə aid olan tələbləri ali və digər məhkəmələrin hakimlərinə olan tələblərlə eyniləşdirməyi doğru saymıram və əslində, bir çox ölkələrdə bu yoxdur da. Bunu demək istəyirdim. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən səsverməyə keçirəm. Bu qanun layihəsində 3 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə 2-ci maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Sonuncu, 3-cü maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyimizdə olan məsələlərin hamısına baxdıq.

İndi isə çox hörmətli həmkarlar, mən qeyd etmək istəyirəm ki, bu gün ilaxır çərşənbədir və 2 gündən sonra

xalqımız Novruz bayramını, ayın sonunda isə Ramazan bayramını qeyd edəcək. Xalqımızın milli-mənəvi dəyərləri arasında müstəsna yer tutan Novruz bayramı, bildiyiniz kimi, yeniliyi, bolluğu, bərəkəti və xeyirxahlığı təcəssüm edir. Ramazan bayramı isə insanları əmin-amanlığa və həmrəyliyə dəvət edir. Mən təklif edirəm ki, bu gözəl bayramlar münasibəti ilə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Xalqımızın və dövlətimizin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. *(Alqışlar.)*

Çox sağ olun.

Hörmətli həmkarlar, bayramlar münasibəti ilə mən sizin hər birinizi ürəkdən təbrik edirəm və birgə fəaliyyətimizdə hamımıza uğurlar arzulayıram. Mən bizim media nümayəndələrinə də, – onlar bizimlə bərabər işləyirlər, – can sağlığı, işlərində uğurlar, səadət arzulayıram.

Sağ olun. Hamınızı təbrik edirəm.

# EDİLMƏMİŞ ÇIXIŞIN MƏTNİ

***<u>18 mart 2025-ci il</u>***

**Bəhruz Məhərrəmov.** Qarşıdan milli özünüdərkin təşəkkülündə mühüm rol oynamış Novruz və Ramazan bayramları gəlir. Bu münasibətlə başda möhtərəm Prezident və ölkənin birinci ailəsi olmaqla xalqımıza, hörmətli sədr, Sizə, deputatlarımıza və Milli Məclis kollektivinə, habelə şəhid ailələri, müharibə əlilləri, eləcə də təmsil olunduğum Biləsuvarın hər bir sakininə təbriklərimizi çatdırır, Ulu Öndər və şəhidlərin ruhuna ehtiramımızı ifadə edir, dövlətçiliyimizin əbədi olmasını diləyirik. Qürurluyuq ki, Prezident İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı və xalqın milli həmrəyliyi sayəsində artıq beşinci ildir bayramlarımızda bayram əhvalı var. Beşinci ildir ki, işğaldan azad olunmuş torpaqlarımızda bayram tonqalının alovu bu bölgənin əsl sahibinin kim olduğunu dünyaya nümayiş etdirir.

Hörmətli həmkarlar, xalqımız çoxəsrlik mədəni k
şinə, mənəvi və ailə dəyərlərinə həmişə yüksək qiymət vermiş, Ulu Öndər Heydər Əliyev və möhtərəm Prezident məhz bu dəyərlərə söykənərək inkişafa nail olmuş, parçalanmış, işğala məruz qalan ölkəni qalib dövlətə çevirmişdir.

Təsadüfi deyil ki, bizə hərbi-siyasi meydanda məğlub olanlar revanş üçün məhz bu dəyərləri hədəfə almağa çalışır. Əminliklə deyə bilərik ki, bu günlərdə Avropa Parlamentinin qəbul etdiyi qətnamə nümunəsində avrostrukturlardan, o cümlədən ABŞ Dövlət Departamenti söz-

çüsünün dünənki yersiz bəyanatı fonunda okeanın o tayından Azərbaycanda insan haqlarının vəziyyətinə dair uydurulan situasiya məhz ideoloji təcavüz cəhdidir. Kimsə deyə bilər ki, insan hüquqları bir ölkənin daxili məsələsi deyil. Yaxşı, bəs indi Azərbaycanda separatçıların müdafiəsinə qalxmaqla terrorçuluğu təşviq edənlər, konkret əməllərinə görə məhkum olunan, yaxud cinayət təqibi davam edən şəxsləri siyasi məhbus kimi qələmə verməyə çalışanlar işğal dövrü və xalqımız soyqırımlara məruz qalarkən niyə susurdu?

Əksinə, həmin dövrlərdə diqqət insan haqlarına deyil, imperialist məqsədlər naminə Qərbin marionet təsisatlarının şəbəkələşməsinə yönəldilirdi. ABŞ özü bu gün imtina etsə də, antimilli cəbhə təfəkkürü hələ də həmin şəbəkələrdən bərk-bərk yapışıb.

Ona görə də boş sözlər, boş vəd və bəyanatlara, insan haqları adına boğazdan yuxarı, bəlağətli nitqlərə ehtiyac yoxdur. Sadə bir həqiqət var, Azərbaycan insanını Qarabağa İlham Əliyev qaytardı, Xankəndidə bayram tonqalını qalamağı, Şuşada bayram namazını qılmağı bu siyasi iradəyə borcluyuq və xalq da hər şeyi çox yaxşı bilir. Ötən dövr ərzində məruz qaldığımız ədalətsizlik və ikili standartlar bizə dərs olmalıdır ki, kimdənsə gözləntimiz olmasın.

Bir daha deyirəm, biz işğala beynəlxalq ictimaiyyətin deyil, mövcud siyasi iradənin qətiyyəti ilə son qoymuşuq, Böyük Qayıdış da bu çərçivədə reallaşır, separatçı-terrorçular da məhz cənab İlham Əliyevin qəti mövqeyi nəticəsində Bakıda mühakimə olunur, o cümlədən şərəfini pula satmış söyüş camiəsi də tezliklə qanun qarşısında cavab verəcək.

# MÜNDƏRİCAT

18 mart 2025-ci il ............................................................... 3
Edilməmiş çıxışın mətni ...................................................... 86

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

İkinci sessiya
Yaz

25-ci cild

18 mart 2025-ci il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 5,5. Sifariş 19. Tiraj 150.